www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 noyabr 2015-ci il Cümə axşamı № 263 (6291) Qiymətı 40 qəpik

## Xəbər

### Tələbə qız kirayədə qaldığı evin sahibini öldürdü

yazısı səh.14-də

## Gündəm

### Prezidentdən görüş öncəsi önəmli açıqlamalar



Azərbaycan prezidenti Parisə Qarabağ məsələsində prinsipial və sərt mövqe ilə gedir; rusiyalı politoloq: "Moskva çətin ki, məsələdə Azərbaycanı açıq şəkildə qıcıqlandıran addımlar atsın..."

yazısı səh.13-də

### Fevral devalvasiyasının gerçək baiskarları...

yazısı səh.3-də

### Rauf Mirqədirovun məhkəməsində şahidlər ifadə verdilər

yazısı səh.4-də

### Avropanın təhlükəsizlik sistemi niyə çökdü...

yazısı səh.6-da

### Cahangir Hacıyev baş bankir postuna Hacı Məmmədovun ifadəsi üzərindən gətiriləcəkmiş

yazısı səh.7-də

### MTN-in 19 yüksək vəzifəli şəxsi həbs edilib

yazısı səh.3-də

### Qarabağ məsələsi Avstraliya parlamentində müzakirə edildi

yazısı səh.10-da

### Amerika və Rusiya silahı üçün bazar - Yaxın Şərq savaşı...

yazısı səh.6-da

### Saakaşvili: "Türkiyəyə olan hörmətim daha da artdı"

yazısı səh.9-da

### Bakıda silsilə oğurluqlar edən şəxs saxlanıldı

yazısı səh.14-də

### Azərbaycan gənclərinin İŞİD-ə meylliliyinin sirri...

yazısı səh.15-də

### Başına milyonlar qoyulan adamlar...

yazısı səh.12-də

## Dövlət başçısından məmurlara "stresə hazır olun" mesajı

# BAŞLANDI... İQTİDAR KOMANDASINA GƏNCLƏR GƏLİR

Prezident 38 yaşlı Ramin Quluzadəni rabitə və yüksək texnologiyalar naziri əvəzi təyin etdi; 2012-ci ildə müəyyən səbəblərdən ertələnən iki proses indi paralel olaraq aparılır: harınlamış nazirlər cəzalandırılır, təyinatlarda gənc kadrlara üstünlük verilir...




yazısı səh.8-də

## Türkiyə Rusiyanı imperiya qürurundan vurdu - yeni təfsilat, dərslər

224 nəfərlik sərnişin təyyarəsinin məhvindən elə də üzülməyən Kremlin Ankaraya qəzəb püskürməsinin ilginc pərdəarxası; "Su-24" insidenti qardaş ölkənin sıradan bir dövlət olmadığını təsdiqləməklə yanaşı, Azərbaycana da mesajdır...

yazısı səh.9-da



### Bahar Muradova "MTN işi"ndən danışdı

yazısı səh.5-də



*Mehman Əliyev:*

### "Müxalifətin zəifləyib sıradan çıxdığı ölkələrdə gec-tez hakimiyyət özü də zəifləyir"

yazısı səh.4-də



*Rauf Arifoğlu:*

### "Türkiyənin yanında, Rusiyanın qarşısında..."

yazısı səh.9-da

# Prezident 5 səfir və 2 konsulumuzu geri çağırdı



**Həsən Zeynalov Türkiyənin İstanbul şəhərində Azərbaycanın baş konsulu və eyni zamanda Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılıb.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.

Həmçinin prezident Tofiq Zülfüqarovun ölkəmizin Estoniyadakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamları ilə Elxan Qəhrəmanov Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfiri postundan, Məmməd Əhmədzadə ölkəmizin Argentina və eyni zamanda Paraqvay, Boliviya, Çili, Uruqvay Şərq Respublikasında səfiri vəzifəsindən, Vəhdət Sultan-zadə ölkəmizin Türkmənistanda və eyni zamanda Əfqanıstandakı səfiri vəzifəsindən, Zakir Həşimov isə Azərbaycanın Qazaxıstandakı səfiri vəzifəsindən geri çağırılıb.

Bundan başqa, Rəşad Məmmədov Azərbaycanın Qazaxıstanın Aktau şəhərindəki baş konsulu vəzifəsindən geri çağırılıb.

# Paytaxt məktəbləri soyuqdan donur- nazirlik isə araşdırır...

## Əksər məktəblərin qazanxanaları mərkəzləşdirilmiş istilik sisteminə bağlı olmasa da, Təhsil Nazirliyi məsələni həll etmir...

**Paytaxtın orta məktəblərində istilik problemi ciddiləşib. Redaksiyamıza gələn çoxsaylı şikayətlər göstərir ki, orta məktəblərə istilik verilmir, şagirdlər soyuq sinif otaqlarında dərs keçməyə məcburdurlar. Problemin Bakının əksər məktəblərini əhatə etdiyi bildirilir.**

Məsələn, Yasamal rayonunda yerləşən 308 saylı məktəbdə uşaqların soyuq sinif otaqlarında dərs keçdiyi, problemin nazirlik səviyyəsinə qədər qaldırıldığı, lakin həllini tapmadığı bildirilir. Valideyn Natiq Bayramov bildirir ki, iki övladı həmin məktəbdə təhsil alır və günlərdir ki, soyuq sinif otaqlarında oturmağa məcburdurlar: "Uşaqlar 3-cü və 6-cı siniflərdə təhsil alırlar. Bakı Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı var ki, noyabrın 15-dən istilik verilməlidir. Ancaq "otopleniyalar", istilik sistemləri işləmir. Dəfələrlə Təhsil Nazirliyinə, 146-ya, qaynar xəttə zəng etmişəm, işləmir, cavab vermir. Məktəb kimi qaynar xətt də donub. Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq şöbələrindən mənə cavab verirlər ki, onlara təsir etmək rıçağı yoxdur. Nazirləq Kabineti də deyir ki, qaz yoxdur. Məktəb Təhsil Nazirliyinin öz balansındadır, "Azəristilik"in balansında deyil. Nazirlik niyə bunu həll etmir? Gələn qışamı hazırlaşırlar? Sonuncu cavabları o oldu ki, Yasamal Rayon Qaz İdarəsi ilə Bakı Baş Təhsil İdarəsi hesablaşmayıblar. Qaz pulunu Təhsil İdarəsi bu gün ödəyib, Qaz İdarəsinin isə hələ qazı açmaq fikri yoxdur. Nəticədə uşaqlarımız məktəbdə donur".

Məsələ ilə bağlı Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov bildirib ki, məktəblərdə istiliyin olmaması ilə bağlı problemləri araşdırırlar. Onun sözlərinə görə, nazirliyə bu mövzuda gələn tək-tək şikayətlər də araşdırılır.

❑ RÖYA

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!
- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sıdıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Mesavat" - 0.40 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Müdafiə Nazirliyinin kollegiya iclası keçirilib

## Silahlı Qüvvələrin rəhbər heyəti üçgünlük toplantıda iştirak edib



**Noyabrın 23-dən etibarən Azərbaycan Silahlı Qüvvələrinin bütün rəhbər heyətinin iştirakı ilə üçgünlük toplantı keçirilib. Nazirliyin yaydığı məlumatda bildirilir ki, müdafiə nazirinin müavinlərinin, Silahlı Qüvvələrin növləri və qoşun qisimləri komandanlarının, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin, birlik və birləşmə komandirlərinin, qərargah rəislərinin və digər məsul zabitlərin iştirakı ilə keçirilən toplantıda il ərzində orduda aparılan fəaliyyətlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı vəzifəli şəxslərin məruzələri dinlənilib, perspektiv məsələlər müzakirə edilib.**

Təlim mərkəzində və çöl-səhra şəraitində təşkil olunan hazırlıq məntəqələri və nöqtələrində nəzəri və praktiki məşqlər keçirilib.

Silahlı Qüvvələrin rəhbər heyətinin döyüş hazırlığının, bacarıq və qabiliyyətlərinin yoxlanılması məqsədilə toplantıda silahlanmada olan zirehli texnikanın ştat silahından və atıcı silahlardan atışlar icra olunub, generallar və zabitlər müxtəlif növ tırtıllı və təkərli döyüş maşınlarının, avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqları yerinə yetiriblər.

Toplantı iştirakçılarının ümumqoşun nizamnamələri, rəhbəredici və digər normativ-hüquqi sənədlərlə bağlı biliklərı üzrə məqbullar qəbul edilib, şəxsi heyətin fiziki hazırlığının səviyyəsi yoxlanılıb.

Noyabrın 25-də isə müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2015-ci tədris ilində qoşunların hazırlığı üzrə yekunlara dair geniş kollegiya iclası keçirilib.

Toplantıda çıxış edən müdafiə naziri prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin fəaliyyətinə verdiyi yüksək qiyməti və ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdırıb. General-polkovnik Z.Həsənov dövlətimizin başçısının qayğısı nəticəsində son bir ildə döyüş hazırlığı, şəxsi heyətin sosial-məişət təminatı, eləcə də digər sahələrdə planlı şəkildə həyata keçirilən fəaliyyətləri xüsusi qeyd edib.

Müdafiə naziri hesabat dövründə görülən tədbirlərin təhlilini apararaq xidməti döyüş fəaliyyəti, həyata keçirilən islahatlar, döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi və onun hərtərəfli təminatı, düşmənin təxribat-kəşfiyyat qruplarının basqın cəhdlərinin qarşısının alınması, qoşunların mütəxəssislərlə komplektləşdirilməsi, eləcə də əldə edilən digər nailiyyətlər və 2016-cı tədris ilində Silahlı Qüvvələrin vəzifələri barədə ətraflı məruzə ilə çıxış edib.

Sonra kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

Müdafiə nazirinin əmrinə əsasən, 2015-ci tədris ilində döyüş hazırlığının yekunlarına görə hərbi xidmətdə fərqlənən hərbi qulluqçular medallarla təltif edilib, təşəkkür, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

# Xədicə İsmayılın apelyasiya şikayəti təmin olunmadı

**Bakı Apelyasiya Məhkəməsində jurnalist Xədicə İsmayıl barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, İlqar Murquzovun sədrliyi ilə keçirilən prosesdə Xədicə İsmayılın vəkili Fariz Namazlı müdafiə etdiyi şəxsə bəraət verilməsi barədə vəsatət qaldırıb.

Vəkil eyni zamanda Xədicə İsmayılın prosesdə vəkillərinin yanında əyləşməsini xahiş edib. Vəsatətlər təmin olunmayıb. Daha sonra Xədicə İsmayıl çıxış edərək ona qarşı olan ittihamlarla razılaşmadığını bildirib.

Dövlət ittihamçısı Abbas Abbasov isə məhkəmədən hökmün qüvvədə saxlanmasını istəyib. Məhkəmə müşavirəyə gedib. Müşavirədən sonra apelyasiya şikayətinin təmin olunmaması barədə məhkəmənin qərarı elan olunub.

Xatırladaq ki, X. İsmayıl Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən 7,5 il müddətində azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan X. İsmayıl apelyasiya şikayəti verib. Şikayətdə onun barəsindəki cinayət işinə xitam verilməsi və azadlığa buraxılması xahiş olunub.




# Xaləddin İsgəndərov restoranını satışa çıxardı

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərova məxsus restoran satışa çıxarılıb. Bu barədə musavat.com-a daxil olan məlumatda bildirilib. Məlumatda qeyd edilir ki, restoran yeni avtovagzalla üzbəüz 10 sot torpağın icində tikilib. Obyekt xususi zövq və dizaynla təmir olunub və ümumi sahəsi 700 kvadrat metrdir. Restoranın 3 boyuk zalı, 3 kabineti, həyətdə 4 kabineti və acıq verandası var.**

Restoranın satışa çıxarılması ilə bağlı elan daşınmaz əmlakın alqı-satqısı üzrə ixtisaslaşan shop.az saytında yerləşdirilib.

Qeyd edək ki, bəzi xəbər saytlarında restoranın Ziya Məmmədova aid olduğu qeyd edilib. Ancaq "Yeni Müsavat"ın yüngül araşdırması nəticəsində məlum olub ki, restoran İH başçısı Xaləddin İsgəndərova məxsusdur.

# Dünya Bankı Azərbaycanı Almaniya və Fransadan önə çəkdi

**Dünya Bankı və PwC Beynəlxalq Auditor Şirkəti noyabrın 23-də «Paying Taxes 2016» renkinqini açıqlayıb. "Turan" bildirir ki, ona əsasən, Azərbaycan vergi ödənişinin asanlığına görə 189 ölkə arasında 34-cü yerdədir.**

Renkinqə görə, Azərbaycanda ümumi vergi yükü sahibkarların xərclərinin 39,8%-ni təşkil edir, vergi ödəmək üçün tələb olunan vaxt 195 gündür. Sahibkarlar 7 növ vergi ödəyir.

DB və PwC versiyasına görə, Azərbaycan vergi ödənişinin asanlığına görə Fransa (87-ci yer), Almaniya (72), Yunanıstan (66) və s. kimi ölkələri qabaqlayır. İtaliya (137) və Yaponiya (121) vergi ödəyiciləri üçün əlverişli sayılmır.



# Azay Quliyev: "ABŞ-ın Dağlıq Qarabağa yardımı ciddi narahatlıq doğurur"

## Şura sədri ABŞ-ın Avropa və Avrasiyaya yardımı üzrə koordinatoru Alina Romanovski ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında ABŞ-ın Avropa və Avrasiyaya yardımı üzrə koordinatoru Alina Romanovski, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) ölkə üzrə direktoru Mikela Merediç və ABŞ səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqani ilə görüş keçirilib. Bu barədə müsavat.com-a şuradan məlumat verilib.**

ABŞ-ın Avropa və Avrasiyaya yardımı üzrə koordinatoru Alina Romanovski xarici donorların yerli QHT-lərə qrant vəsaiti ayırmalarının hüquqi əsasları haqqında mövcud vəziyyətlə maraqlanıb və şura sədrindən bu sahədə bir sıra məqamlara aydınlıq gətirilməsini xahiş edib.

Azay Quliyev «Qrant haqqında» Qanuna edilmiş əlavə və dəyişikliklərin mahiyyəti haqqında qonaqlara ətraflı məlumat verib və onların suallarını cavablandırıb. Şura sədri ABŞ-ın Dövlət Departamentinin Dağlıq Qarabağa birbaşa yardımına da toxunaraq ölkə ictimaiyyətinin bunu ciddi narahatlıqla qarşıladığını qonaqların diqqətinə çatdırıb. Azay Quliyev bildirib ki, xarici ölkələr tərəfindən Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə rəsmi Bakının razılığı olmadan edilən istənilən yardım və yaxud səfər beynəlxalq hüquq normalarına ziddir və qəbuledilməzdir.

USAİD-in ölkə üzrə direktoru Mikela Merdiç hər iki qurum arasında əməkdaşlığı yüksək qiymətləndirib və tərəfdaşlarının üzləşdiyi çətinliklərin həllində şuranın mühüm rolunu qeyd edib.

Sonda tərəflər müzakirə olunan məsələlərlə bağlı dialoqun və əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətli olduğunu qeyd ediblər.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə səlahiyyətlərini aşma faktları ilə bağlı cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

# MTN-in 19 yüksək vəzifəli şəxsi həbs edilib

## 1 nəfər qaçıb, 1 nəfər isə ev dustağı edilib; Baş Prokurorluq, nəhayət, həbslərin səbəbləri barədə açıqlama yaydı; rəsmi məlumatda şok faktlar var



Baş Prokurorluqdan musavat.com-a verilən məlumata görə, sahibkarlar və ayrı-ayrı vətəndaşlardan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və prokurorluq orqanlarına daxil olan çoxsaylı müraciətlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində həyata keçirilən araşdırma nəticəsində Milli Təhlükəsizlik Nazirliyinin bir sıra baş idarə, idarə, şöbələrinin rəhbərləri və digər əməkdaşları tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma, gizli qaydada telefon danışıqlarına qulaq asmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr, elektron məlumat daşıyıcılarından, informasiya texnologiyalarından istifadə etməklə özgənin əmlakının gizli talanması, Bakı şəhəri və respublikanın müxtəlif bölgələrində iş adamlarının izlənilərək, nazirliyin inzibati binalarına gətirilib qanunsuz azadlıqdan məhrum edilməsi, rüşvət alınması, hədə-qorxu yolu ilə onlara məxsus külli miqdarda nağd pul, daşınar və daşınmaz əmlakın tələb edilib ələ keçirilməsinə dair kifayət qədər sübutlar toplanmışdır.

Belə ki, həmin nazirliyin Baş İdarəsinin sabiq rəisi Çovdarov Akif Teymurxan oğlu tabeçiliyində olan idarə və şöbə rəisləri Əliyev Akif Oqtay oğlu, Məmmədov Səlim İbrahim oğlu və Osmanov Orxan Hacısəfər oğlu ilə cinayət əlaqəsinə girib qrup halında qanunsuz əməliyyatlar keçirib sahibkarlar İ.Qasımov, N.Orucov, T.İbrahimov, C.Səfərov, Ş.Qurbanov, F.Zülfüqarov, A.Kərimov, E.Hacıyev, Q.Ədilov və başqalarının nazirliyə gətirilərək qanunsuz azadlıqdan məhrum etmələri, zor tətbiq etmələri, həbs olunacaqları ilə hədələyərək külli miqdarda nağd pullarını, qızıl-zinət əşyalarını, digər əmlak və torpaq sahələrini hədə-qorxu yolu ilə almalarına dair əsaslı faktlar müəyyən edilmişdir.

Nazirliyin digər baş idarəsinin sabiq rəisi Qurbanov Sübahir Xaliq oğlunun Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin vəzifəli şəxslərindən ümumi himayədarlığın həyata keçirilməsi adı ilə son 3-4 il ərzində hər ay sabit olaraq külli miqdarda rüşvət almasına dəlalət edən sübutlar toplanmışdır. S.Qurbanov və tabeçiliyində olan idarə və şöbə rəisləri Əliyev Füzuli Zülfüqar oğlu, Alıyev Natiq Allahverdi oğlu və Məmmədov Zaur İbiş oğlundan ibarət mütəşəkkil cinayətkar dəstənin 2015-ci ilin mart ayında sahibkar Z.Salmanovun iş yerində qanunsuz axtarış keçirməsi, onun, A.Zakirov və M.Quliyevin zorla nazirliyə aparıb qanunsuz azadlıqdan məhrum edərək hədə-qorxu gəlməklə külli miqdarda pul vəsaitlərinin ələ keçirilməsinə dair kifayət qədər əsaslar vardır.

Nazirliyin həmin vəzifəli şəxslərindən ibarət mütəşəkkil dəstənin 2014-cü ilin dekabr ayında sahibkar K.Seyfullayevin olduğu avtomaşını güdərək onu nazirliyin inzibati binasına aparıb qanunsuz azadlıqdan məhrum etməsinə, qanunsuz əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş rüsvayedici məlumatların yayılacağı və narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər cinayətlərə görə həbs olunacağı hədəsi ilə külli miqdarda pul aldıqdan sonra azad etməsinə dair faktlar müəyyən edilmişdir.

Bundan əlavə, həmin mütəşəkkil dəstənin ayrı-ayrı sahibkarlar G.Əliyev, A.Kərimov, Ə.İbadov, S.Məcidov, Ə.Mirzəyev və digərlərini eyni üsullarla hədələyib hüquqlarını pozmalarına dair əlavə faktlar üzrə araşdırmalar aparılır.

Nazirliyin Baş İdarəsinin sabiq rəis müavini Əliyev İlqar Mustafa oğlu və şöbə rəisinin müavini Mehdiyev Azər Söhrab oğlunun sahibkar M.Mahmudov barəsində keçirdikləri qanunsuz əməliyyat-axtarış tədbirləri nəticəsində əldə etdikləri şəxsi məlumatların yayılacağı, onun şəxsiyyəti üzərində zor göstəriləcəyi və cinayət işi başlanaraq həbs olunacağı hədəsi ilə külli miqdarda pulunu ələ keçirmələrinə dair mötəbər sübutlar toplanmışdır. Qeyd olunan şəxslərin hədə-qorxu və təzyiqləri nəticəsində hüquqları pozulmuş digər sahibkarların müraciətləri də araşdırılır.

Nazirliyin digər baş idarələrinin sabiq rəisləri Quliyev Teymur Rəcəb oğlu və Mirvətova Natavan Mürsəl qızı, həmin qurumların digər vəzifəli şəxsləri Əzizov Elşad Əzizağa oğlu, Şirəliyev Anar Hacıçoban oğlu, Atayev Fərhad Tofiq oğlu və Əliyev Eşqin Dünyamalı oğlu səlahiyyət hüdudlarından açıq-aşkar surətdə kənara çıxıb qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrlə ayrı-ayrı sahibkarların telefon danışıqlarının dinlənilməsi və digər əməliyyat-axtarış tədbirlərini qanunsuz həyata keçirərək fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinə, həmçinin dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarına dair təkzibedilməz sübutlar əldə edilmişdir.

Nazirliyin sabiq şöbə rəisi Ələkbərov Vüsal Hicran oğlunun sahibkar N.Kazımovu təqsirləndirilən şəxs qismində cəlb edərək həbs etməsi, azad olunması üçün külli miqdarda rüşvət alaraq onu ev dustaqlığına buraxması və barəsində olan cinayət təqibinə xitam verməsinə dair əsaslı faktlar müəyyən edilmişdir. Bundan başqa, Vüsal Ələkbərovun həmin üsullarla sahibkarlar H.Səfərov, M.Salahov, İ.Şaxverdiyev, N.Rzayev və digərlərini hüquqlarını pozmasına dair faktlar üzrə istintaq aparılır.

Nazirliyin digər əməkdaşı Abdullayev Mehman Dəmir oğlu sahibkarlar Ş.Quluzadə və B.Həsənovu əsassız olaraq nazirliyin inzibati binasına gətirməsi, onları qanunsuz şəkildə burada saxlaması və azad edilmələri müqabilində hədə-qorxu gəlməklə külli miqdarda pulu tələb edib alması ilə əlaqədar ittiham olunmuşdur.

İstintaq zamanı həmçinin müəyyən edilmişdir ki, nazirliyin Baş İdarəsinin sabiq şöbə rəisi Əsgərov Mirəziz Mirəşrəf oğlu sahibkar V.Əzizin bank hesabına külli miqdarda pulun köçürüldüyünü qanunsuz əməliyyat-axtarış tədbirləri nəticəsində bilmiş, sahibkar həmin pulu aldıqdan sonra onu qanunuz saxlayaraq telefon danışıqlarına qulaq asıldığını bildirmişdir. M.Əsgərovun iş adamını həbs olunacağı ilə hədələyərək pulun əksər hissəsini ələ keçirdikdən sonra buraxması və gələcəkdə hesabına göndəriləcək pul vəsaitlərinin alınmasına manea törətməmək üçün əlavə olaraq külli miqdarda pul almasına dair kifayət qədər dəlillər mövcuddur.

Qeyd olunan faktlar üzrə 21 şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, 19 şəxs barəsində həbs-qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilmiş, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınmışdır. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilmişdir.

Hazırda ayrı-ayrı vətəndaşlardan yeni müraciətlər daxil olmaqdadır. Müraciətlərdə göstərilən bütün xüsusatların tam, hərtərəfli və obyektiv araşdırılması təmin edilərək, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülür.

**Cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.**




# Fevral devalvasiyasının gerçək baiskarları...

## Cahangir Hacıyev və Eldar Mahmudovun gizli işbirliyi və həyata keçirdikləri maxinasiyalar manatın devalvasiyasını sürətləndirib...

**Bu ilin fevralında milli valyuta olan manatın devalvasiyasının səbəbləri ilə bağlı yeni ehtimallar səslənməkdədir. Bildirilir ki, hökumət həmin vaxt devalvasiyanı önləməyə çalışsa da, vəziyyət qəflətən ciddi şəkildə dəyişib. Buna səbəb isə Beynəlxalq Bank və Milli Təhlükəsizlik Nazirliyi rəhbərliyinin birgə həyata keçirdiyi cinayət tərkibli maliyyə əməliyyatlarıdır. Qeyd edilir ki, Cahangir Hacıyev və Eldar Mahmudovun gizli işbirliyi və həyata keçirdikləri maxinasiyalar manatın devalvasiyasını "tətikləyib". Söhbət on milyard manata yaxın vəsaitdən gedir. Üstəlik, hökumət çıxış yolu olaraq yumşaq devalvasiyaya getməyi qərara alsa da, bankir və nazirin saxta kredit əməliyyatı vəziyyəti dramatikləşdirib. Yəni MTN rəhbərliyi Beynəlxalq Bankla birlikdə köhnə tarixə çox böyük məbləğdə kreditlər sənədləşdirərək vəziyyəti bir qədər də ciddiləşdiriblər. Məsələnin hazırda aparılan çoxsaylı həbslərlə bağlı istintaqda da araşdırıldığı vurğulanır.**

**Ekspert Natiq Cəfərlinin** sözlərinə görə, əslində devalvasiyanın fundamental makroiqtisadi səbəbləri var idi: "Azərbaycan manatı uzun illər süni şəkildə stabil saxlanılırdı. Manatın baha olması ümumi iqtisadi göstəricilərinə mənfi təsir göstərirdi. Azərbaycanın satdığı məhsulun 94 faizi neft və neft məhsulları idi. Gəlirlər ona görə müəyyən olunurdu. Bunun da manatın güclü olmasına ciddi dəstəyi var idi. Neftin qiymətinin iki dəfədən çox düşməsi ölkəyə gələn valyutanın ciddi şəkildə azalmasına səbəb oldu. Bununla da manata olan dəstək xeyli dərəcədə zəiflədi. Ancaq ölkədə baş verən olaylar, o cümlədən Beynəlxalq Bank ətrafında baş verənlər bu prosesi sürətləndirə bilərdi. Biz hələ bu ilin əvvəlində devalvasiyanın olacağını əminliklə deyirdik. Amma daha çox ehtimallar noyabr seçkisindən sonra devalvasiyanın baş verəcəyi barədə idi. Devalvasiyanın fevralda olacağı ehtimalları az idi. MTN-in iqtisadiyyata müdaxiləsi, müəyyən əməliyyatların həyata keçirilməsinin burada rolu ola bilər".

Qeyd edək ki, bəzi ekspertlər devalvasiya prosesinə MTN-in böyük təsiri olduğunu qeyd və ehtimal edirlər. Bildirilir ki, devalvasiya ərəfəsində MTN rəhbərliyi Beynəlxalq Bankla birlikdə köhnə tarixə çox böyük məbləğdə kreditləri sənədləşdiribər və bankdan böyük məbləğdə pullar çıxarılaraq mənimsənilib. Problem o dərəcədə ciddidir ki, hətta hazırda istintaqda da bu məsələnin araşdırıldığı bildirilir. Ehtimallara görə, dövlət başçısının devalvasiyadan sonrakı çıxışında "maliyyə möhtəkirləri" ifadəsi məhz buna işarədir və bu prosesin üstü açılıb.

**Ekspert Qadir İbrahimli isə bildirir ki, bu kimi ehtimallar səsləndirmək mümkündür:** "Devalvasiya məsələsində ümumiyyətlə əsas günah Beynəlxalq Bankda idi. Ölkənin valyuta ehtiyatları çox amansızcasına talan edilmişdi. Eyni zamanda devalvasiya ərəfəsində hökumət ilkin olaraq yumşaq devalvasiyaya getməyi düşünürdü. Bununla bağlı layihədə hökumət yumşaq devalvasiyaya getməyi planlaşdırırdı. Ancaq həmin ərəfədə böyük məbləğdə pullar dəyişdirilmişdi, Beynəlxalq Bank tərəfindən manat dollarla əvəz edilmişdi. Prezident də Mingəçevir səfərində qeyd etdi ki, müəyyən möhtəkirlər bir gecəyə 500 milyon manatı dollara çeviriblər və bu proses bir neçə gün davam edib. Həmin 500 milyonluq əməliyyatlar Beynəlxalq Bank tərəfindən aparılırdı, Cahangir Hacıyevin rəhbərliyi ilə aparılırdı. Burada Eldar Mahmudovun özünün iştirakı olub. Çünki həmin vaxt ölkənin valyuta ehtiyatı kəskin şəkildə azaldığından, hökumət məcbur olub kəskin devalvasiyaya getdi".

Qeyd edək ki, milli valyutanın devalvasiya ehtimalları yenidən səslənməkdədir. Əksər ekspertlər bildirirlər 2015-ci ilin sonuna qədər manatı qorumaq mümkün olmayacaq. Yəni manat yenidən öz dəyərini, həm də ciddi şəkildə itirəcək. Əksər ekspertlərin fikrincə, manatın devalvasiyası qaçılmazdır. Milli valyutanın ilin sonuna qədər dəyərini saxlaya biləcəyi sual altındadır. Neftin qiymətinin artmaması, valyuta ehtiyatlarının getdikcə azalması, Federal Rezerv Sisteminin də faiz dərəcəsini artıracağı ehtimalları devalvasiyanı qaçılmaz edir. Ekspertlərə görə, manata olan işgüzar inam gündən-günə azaldığından onu qorumaq Mərkəzi Banka getdikcə baha başa gəlməkdədir. Yəni neft qiymətlərinin artması ehtimalının olmadığı yaxın illərdə valyuta bazarında müşahidə olunacaq şokları sadəcə valyuta rezervlərini xərcləməklə tənzimləmək perspektivi görsənmir.

**Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 263 (6291) 25 noyabr 2012

# Rauf Mirqədirovun məhkəməsində şahidlər ifadə verdilər

## Proses sona doğru gedir; dekabrın 2-də prokuror jurnalistə iş istəyə bilər

**Noyabrın 25-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun növbəti məhkəməsi keçirildi. Proses qapalı olduğundan jurnalistə dəstək üçün məhkəmə binasının önünə demək olar ki, gələn yox idi. Yalnız media nümayəndələri məhkəmənin önündə proses iştirakçılarından məlumat almaq üçün gözləyirdilər.**

Məhkəmə iclası saat 10:30-da Əlisultan Osmanovun sədrliyi ilə davam edib. Prosesdə ifadə verən şahidlərdən məlumat almaq mümkün oldu.

Şahid qismində ifadə verən, uzun illər "Ayna Zerkalo"da R.Mirqədirovla birlikdə çalışmış siyasi **şərhçi Azər Rəşidoğlu** təqsirləndirilən şəxsin vətənə xəyanət etdiyinə inanmadığını söylədi: "Məhkəmə qapalı keçirilir. İltizam vermişəm ki, proses barədə heç bir məlumat verməyəcəm. İfadəm barədə danışa bilmərəm. Ancaq ilk günlərdən dediyim fikirlərin üzərində qalıram. Rauf Mirqədirovun vətənə xəyanət etdiyinə inanmıram. Onun adı hallanan cinayət məsələsində hər hansı bir rolunun olduğuna da inanmıram. Əminəm ki, Rauf Mirqədirov tezliklə sıralarımızda olacaq. Çünki istintaqın gedişi və izləmələrim onu deməyə əsas verir ki, onunla bağlı heç bir cinayət faktı ola bilməz. Onu kifayət qədər yaxşı tanıyıram. Bunlar məhkəmədə verdiyim ifadələr deyil. Öz şəxsi fikirlərimdir. Raufu çox yaxşı vəziyyətdə gördüm. Məhkəmə heyətinin də ona münasibəti müsbətdir. Həmişə olduğu kimi, o, gümrah formadadır".


Fuad Ağayev

**Rəfiqə Mirqədirova:** "O maddəni tələffüz etməyə utanıram..."
**Azər Rəşidoğlu:** "Rauf Mirqədirov tezliklə sıralarımızda olacaq"

**Digər şahid Fərid Qəhrəmanov da ifadələri barədə danışa bilməyəcəyini bildirdi:** "Rauf Mirqədirovun məhkəmə prosesində şahid qismində çıxış etdim. Məndən iltizam aldılar ki, ifadəm barədə heç bir açıqlama verə bilmərəm. Onu deyə bilərəm ki, istintaqda da demişəm, verdiyim ifadələrdən asılı olmayaraq, Rauf Mirqədirovun dövlətə xəyanətinə inanmıram. O, Azərbaycanın vətənpərvər, peşəkar jurnalistlərindəndir. Onun həmişə ölkəmizlə bağlı analitik yazıları olub. Xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazılarında tutarlı arqumentlərlə Ermənistanın mövqeyini alt-üst edib. Rauf Mirqədirov Qarabağla bağlı Azərbaycanın mövqeyini beynəlxalq aləmə başa düşüləcək dildə çatdırıb".

**Məhkəmə prosesinin getdiyi müddət ərzində R.Mirqədirovun anası Rəfiqə Mirqədirova oğlu ilə bağlı mətbuata danışdı:** "Rauf çox sağlam, təkəbbürlü, vüqarlı bir şəxsdir. Onun heç vaxt xəstəliyi olmayıb. Amma son 1 il 9 ayda, yəni həbsdə olduğu müddətdə onda bəzi problemlər yaranıb. Tez-tez baş ağrıları olur, görmə qabiliyyəti zəifləyib. İki övladım var. Onların hər birinin müəyyən çətinliyi olanda, mənə ağır təsir edir. Hər bir ana kimi mən də oğlumu çox istəyirəm. Oğlumun həyatına görə daim ona kömək etmişəm. Hətta o, Türkiyəyə təzə köçdüyü illərdə onun bütün avadanlıqlarının hissə-hissə pullarını göndərmişəm".



### "Məni Qərbdən Şərqə, Cənubdan Şimala bağlayıb ittiham etmək istəyirlər"

**Təqsirləndirilən şəxsin anası oğluna verilən cinayət maddəsini dilinə gətirə bilməyiyini qeyd etdi:** "O maddəni 1 il 9 ayda dilimə gətirib, tələffüz etməyə utanıram. Bir ana kimi o maddəni qəbul edə bilmirəm. Arzu edirəm ki, həmin maddənin dəyişilməsində, Raufun azadlığa buraxılmasında, oğlumun təzədən həyata qaytarılmasında Azərbaycan prezidenti İlham Əliyev və Mehriban xanım, ziyalılarımız kömək etsinlər. Rauf heç vaxt dövlətinə xəyanət edə bilməz. O, həmişə dövlətin, xalqın maraqlarını qoruyub. Ermənistana səfəri zamanı orada daim dövlətin dediklərindən kənara çıxmayıb. Məhkəmədən xahiş edirəm ki, oğlumun işinə ədalətli, obyektiv baxsın. Ona haqq-ədalət naminə bəraət versin. Bu günə qədər oğlumun işi ilə bağlı maraqlanan bütün jurnalistlərə minnətdarlığımı bildirirəm. Bu müddət ərzində daim yanımızda oldular".

**Məhkəmə prosesi günorta saatlarında başa çatdı. Müdafiə tərəfinin vəkili Fuad Ağayev məhkəmə istintaqının davam etdiyini bildirdi:** "İstintaq hazırda davam edir. Növbəti proses dekabrın 2-də saat 10:30-da olacaq. Bugünkü prosesdə vəsatət vermədim. Məhkəmə normal aparılmırsa, məhbusun vəkilinin yanında əyləşməsinin önəmi yoxdur. Oturduğum yer Raufa yaxındır. Onunla məsləhətləşmələr aparmaq imkanım var. Məhkəmə istintaqı ilə bağlı narazılığım yoxdur. Rauf bu prosesdə normal görünürdü. Həbs müddətində arıqlayıb".

**Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da həbs edilib. O, dövlətə xəyanətdə ittiham olunur. Yerli və beynəlxalq hüquq təşkilatları onu vicdan məhbusu kimi tanıyırlar.**

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Ölkədə müxalifət institutu sıradan çıxır

**Mehman Əliyev:** "Müxalifətin zəifləyib sıradan çıxdığı ölkələrdə gec-tez hakimiyyət özü də zəifləyir, ciddi problemlərlə üzləşir, artıq Azərbaycanda məhz bu mərhələ yaşanır"

**Azərbaycanda ənənəvi müxalifət partiyalarının, müxalifətçilik institutunun hər ötən gün öləzidiyi, sıradan çıxmaqda olduğu məlum olur. 1 noyabr parlament seçkilərindən sonra bu mənzərə daha çılpaqlığı ilə görünməyə başladı. Ölkədə müxalifət o qədər zəif duruma düşüb ki, varlığı ilə yoxluğu faktiki olaraq bilinmir.**

**Siyasi ekspert, "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev** bu barədə "Yeni Müsavat"a şərhində Azərbaycanda müxalifət institutunun zəiflədilib sıradan çıxarılma siyasətinin illərdir aparıldığını və acı nəticələrini verməyə başladığını bildirdi. Onun sözlərinə görə, Azərbaycanda müxalifətlə yanaşı, hüquq-müdafiə təşkilatlarına, QHT-lərə, biznes adamlarına qarşı çox yanlış siyasət aparılıb. Bu siyasətin "bəhrələri"ni görməkdəyik: "Müxalifətin və qeyd etdiyim strukturların zəifləyib sıradan çıxdığı ölkələrdə gec-tez hakimiyyət özü də zəifləyir, ciddi problemlərlə üzləşir. Artıq Azərbaycanda məhz bu mərhələ yaşanır. Müxalifətin zəif və yox vəziyyətinə salınması ölkə üçün də problemlər yaradıb. Müxalifəti, QHT-ləri ağır duruma düşən ölkənin özü və iqtidarı heç vaxt uzun müddət yaxşı durumda yaşaya bilməz. Diqqət edirsinizsə, artıq bu gün həbsdə olan müxalifətçilərin, hüquq müdafiəçilərinin, jurnalistlərin sayı qədər məmurlar, yüksək rütbəli adamlar həbsdədir. Hələ daha ciddi problemlər qarşıdadır. Ölkədə iqtisadi böhran getdikcə dərinləşəcək. Paralel olaraq cəmiyyətdə narazılıq artacaq".



**Ekspert vurğuladı ki, belə bir durumu yaşayan ölkələrdə sivil demokratik müxalifətin olması, onun cəmiyyəti yönləndirmək gücündə olması çox vacibdir. Azərbaycan iqtidarı üçün heç olmasa bunları nəzərə alıb real müxalifətin tamamilə sıradan çıxmaması, cəmiyyətə təsir edə biləcək gücə sahiblənməsinə şərait yaratmalıdır:** "Çünki ölkədə iqtisadi, sosial böhranın dərinləşdiyi və cəmiyyətin aqressivləşdiyi dövr üçün sivil demokratik müxalifət ölkəyə və iqtidara lazımdır. Demokratik müxalifət institutunun sıradan çıxdığı ölkələrdə onun yerini radikal təmayüllü qüvvələrin tutması şəksizdir. Belə qüvvələr iqtisadi, sosial böhran vəziyyəti yaşayan ölkələr üçün xüsusilə təhlükə yaradırlar. Cəmiyyətin belə qüvvələrin ardınca getməməsi və dağıdıcılığa meyllənməməsi üçün demokratik sivil müxalifət qüvvələri güclü olmalıdır. Azərbaycan iqtidarı bunu nəzərə almalıdır. Əks halda, heç də ürəkaçan vəziyyət olmayacaq. Hakimiyyət bilməlidir ki, müxalifəti güclü olan iqtidarlar daha güclü olur, müxalifətin güclü olduğu cəmiyyətlər daha demokratik olur və radikallıqdan uzaqlaşır.

Biz dəfələrlə Azərbaycan hakimiyyəti ilə görüşlər keçirmişik, dialoqa getmişik və bütün görüşlərdə demişik ki, müxalifət institutunun zəifləldilməsi prosesinin sonu yaxşı olmayacaq. Mən ölkə üçün narahatam. İstəmirəm ki, ölkədə təlatümlər yaşansın".

**M.Əliyev eyni zamanda qeyd etdi ki, ölkədə bundan sonrakı mərhələdə müxalifətin güclənməsi də xalqın narazılığının artması ilə paralel gedəcək:** "Artıq elə bir mərhələ gəlir ki, xalqda narazılıq fonunda iqtidar zəifləyir, müxalifət isə narazıların sayının artması hesabına elektoral bazasını artırır. Bu, öz-özünə gedən prosesdir. Əslində isə bu da normal proses sayılmamalıdır.

Yaxın zamanlarda amnistiyalar olacaq. Həbs edilən siyasi məhbuslar azadlığa buraxılacaq. Yaxşı olar ki, heç olmasa bundan sonra indiyədəki yanlış siyasət təkrarlanmasın".

❑ **E.SEYİDAĞA**

# Asim Mollazadədən minnətdarlıq

**Demokratik İslahatlar Partiyasının (DİP) sədri, 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdə 11274 səslə 22 saylı Nəsimi ikinci seçki dairəsinin qalibi olmuş Asim Mollazadə seçki prosesində iştirak edən insanlara təşəkkürünü ifadə edib.**



DİP mətbuat xidmətindən aldığımız məlumata görə, təşəkkür mətnində bildirilir: "Hörmətli dostlar! 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdə 22 saylı Nəsimi ikinci seçki dairəsinin qalibi olmağımda hər birinizin böyük zəhməti və payı var. Bu qələbəyə görə Sizə - seçicilərimə, seçki qərargahımın üzvlərinə, partiyamızın fəallarına, könüllülərə, müşahidəçilərə, vəkillərimə, səlahiyyətli nümayəndələrimə, Bakı Müharibə Əlil və Veteranları İctimai Birliyinin rəhbərliyi və hər bir üzvünə, bir sözlə, mənim deputat seçilməyimdə əməyi keçən hər kəsə dərin təşəkkürümü bildirirəm!

Mənə göstərdiyiniz bu etimadı doğruldacağıma, hər zamankı kimi xalqımın və dövlətimin keşiyində dayanacağıma, parlamentdə hər birinizin səsi olacağıma əmin olmağınızı istəyirəm!

Məni qələbə münasibətilə təbrik edən hər kəsə təşəkkür edirəm! Rəqiblərimə isə cansağlığı arzulayır, parlamentdə onları da ləyaqətlə təmsil edəcəyimi bilmələrini istəyirəm!"

❑ **Vüqar MURAD**

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015

**Milli Məclisin yeni tərkibi rəhbərliyin seçilməsi ilə fəaliyyətə başladı. Növbəti dəfə parlament sədrinin müavini seçilmiş Bahar Muradova bu çağırışda paralel olaraq İnsan hüquqları komitəsinə sədrlik edəcək. Xanım vitse-spiker "Yeni Müsavat"a müsahibəsində bizi maraqlandıran sualları cavablandırdı. Bahar Muradova parlament tərkibindən, "MTN işi"ndən tutmuş, Türkiyə-Rusiya gərginliyinə qədər bir sıra aktual məsələlərə münasibət bildirdi.**



# Xanım vitse-spiker "MTN işi"ndən danışdı

## Bahar Muradova: "Bunun adı xəyanətmi, səhlənkarlıqmı, cinayətmi olacaq, bu, yekunda dəqiqləşəcək"

***- Yeni tərkibdə siz həm də İnsan haqları komitəsinə sədrlik edəcəksiniz. Bu təqdimat sizin üçün gözlənilməz olmadı ki?***

- Üzvü olduğum partiyanın bütün zamanlarda mənə göstərdiyi etimadın hər zaman mənim üçün gözlənilməz olduğunu düşünmüşəm. Çünki mən öz fəaliyyətinə daim ciddi diqqət edən və hər zaman da özünün fəaliyyətində nöqsanlar axtaran insanlardanam. Ona görə də istənilən halda bu kimi vacib qərarlar qəbul edilərkən və bu cür vacib seçimlər edilərkən onun tam gözlənilən olduğunu söyləmək tərəfimdən bir az qeyri-ciddi yanaşma olardı. Mənim üçün bütün zamanlarda olduğu kimi, indiki halda da növbəti dəfə etimadın göstərilməsi bir növ avans kimi qəbul edilir. Ona görə də mən buna gözlənilən deyə bilmərəm. Nəzərə alsaq ki, bu, üçüncü dəfə baş verir və üstəlik, çox məsul bir komitəyə rəhbərlik həvalə olunub. Əlbəttə ki, gözlənilməzliyi gözlənildiyindən daha çoxdur.

***- Parlamentin yeni tərkibinin yeni sədarətlə işə başlayacağı barədə xeyli məlumatlar yayılmışdı. Amma bu, baş vermədi?***

- Əslində yeni parlamentin sədarəti də yenidən seçilib. (Gülür) Bu baxımdan hər şey yenidir. O ki qaldı kimlərinsə dəyişəcəyinə, belə məsələlər bütün seçkilər öncəsi mətbuatda aktiv müzakirə olunur. Hər kəs özünün düşüncəsinin, təxəyyülünün məhsulunu çox zaman reallıq kimi qələmə verməyə çalışır. Amma əlahəzrət fakt göz önündədir. O da öz növbəsində söylənilənlərin bir çoxunun doğru olmadığını həm bunu deyənlərə, həm ona inananlara bir daha sübut etdi. Bu kimi məsələlərdə öncəgörmələrlə çıxış etmələr çox halda özünü doğrultmayıb. Bu dəfə də özünü doğrultmadı. Düşünürəm ki, çox normal bir seçimdir. Parlament üzvləri YAP çoxluğunun fikrini nəzərə aldılar və bu seçimlərə "hə" dedilər. Xüsusilə də mən partiyamızın sədri, ölkə prezidenti cənab İlham Əliyevə növbəti dəfə bizim namizədliyimizin üzərində dayanmasına görə dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm. Bu, çox böyük etimaddır. Biz üçüncü dəfə bizə göstərilmiş bu etimadı yüksək dəyərləndirərək parlamentdə gözlənilən fəaliyyətin ortaya qoyulması işini təşkil etməyə çalışmalıyıq. Həm ölkə daxilində, həm ölkə xaricində yeni dövrün yeni çağırışlarını nəzərə alaraq işimizi qurmalıyıq. Parlamentin ictimai-siyasi proseslərdə, həyatımızdakı rolunu getdikcə daha da artırmalıyıq və ölkəmizin yeritdiyi siyasətə dəstək verməliyik.

**"Rusiya bizə qonşu, çox yüksək səviyyədə münasibətləri olan, Türkiyə isə qardaş və çox yaxın bir ölkədir"**

***- Parlament sədrinin müavinlərindən heç olmasa birinin digər partiya təmsilçisi olmaması suallar doğurur. Ən azı sədr müavinlərinin sayını artırmaqla bu yeniliyi tətbiq etmək olmazmı? Yeri gəlmişkən, həmkarınız Fazil Mustafa da bununla bağlı şikayətlənib...***

- Parlamentdə müxtəlif partiyaların nümayəndələri təmsil olunursa, onların hər birinin məsələyə fərqli prizmadan yanaşması qəbulolunandır. Burada qeyri-adi nəsə axtarmaq fikrində deyiləm. O ki qaldı müxalif fikrin parlamentdə səslənməsi məsələsinə, o, mütləq şəkildə rəhbərlikdə müxalifətin təmsil olunması ilə ölçülə bilməz. Çünki fərqi yoxdur, istər Rəyasət Heyətində, istər iclas zalında otur, deputatların səlahiyyətləri, statusları eynidir. Fərqlər yalnız iclasların aparılmasında müəyyən prosedurları həyata keçirməklə bağlıdır. Ona görə də mən burda bir çatışmazlıq görmürəm. Müxalifət partiyaların nümayəndələri də parlamentə seçilirlər. Onlar da daxili nizamnamənin tələblərindən çıxış edərək səlahiyyətləri çərçivəsində öz mövqelərini, fikirlərini ifadə edəcəklər, istənilən məsələyə də tənqidi müxalif yanaşmalarını ortaya qoyacaqlar. Əlbəttə ki, parlament rəhbərliyinin də əsas borcu, vəzifəsi ondan ibarətdir ki, bu kimi fikirlərin bərabər şəkildə səslənməsinə şərait yaratsınlar.

***- İnsan hüquqları komitəsinin sədri olmağınız Azərbaycanda, beynəlxalq miqyasda da müzakirə predmeti olan həbslər və ümumən insan haqları ilə bağlı məsələlərin parlamentdə intensiv müzakirəsinə səbəb ola bilərmi?***

- Bu sirr deyil ki, cəmiyyətdə baş verənlər hər zaman parlamentin iclaslarında ciddi şəkildə müzakirə predmeti olur. Adıçəkilən məsələlər də istisna deyil. Parlamentin müvafiq komitələrinin səlahiyyətləri və vəzifələri çərçivəsində müzakirə oluna bilər. Ümumi yanaşmalar var. Konkret yanaşmalar isə ancaq müzakirələrin gedişində özünü göstərə bilir və bu, hansı komitəyə kimin rəhbərlik etməsinə deyil, ümumi prosedurlara, qaydalara uyğun təşkil olunmalıdır. Hesab edirəm ki, bundan sonra da ilk növbədə məsələlərə məhz bu aspektdən yanaşılacaq. O ki qaldı ayrı-ayrı dövrlərdə diqqətin insan haqları ilə məşğul olan ictimai qurumlara, o cümlədən parlamentə yönəlməsinə, bu, əlbəttə ki, müəyyən dövrlərdə aktiv fəaliyyət göstərməyi daha vacib edir. Ona görə də biz komitə olaraq tam tərkibdə işə başlayanda həm qanun yaradıcılığı prosesinə, həm ölkədə və dünyada gedən proseslərə, həm də ölkəmizin yeritdiyi siyasətin mahiyyətinə uyğun olan mövqe sərgiləyəcəyik. Əlbəttə ki, insan hüquqları məsələsi bütün cəmiyyətlərdə, dövlətlərdə olduğu kimi, Azərbaycan dövlətində də ictimai-siyasi proseslərin mərkəzində dayanan məsələdir. Bunun elə mərkəzdə də qalmasına çalışacağıq.

***- Parlament rəhbərliyi və Azərbaycan dövləti Türkiyə-Rusiya gərginliyi ilə bağlı hansı mövqedədir?***

- Mən ümumilikdə dövlətin mövqeyini ifadə etmək səlahiyyətinə malik deyiləm. Amma əlbəttə ki, hər bir Azərbaycan vətəndaşı, o cümlədən dövlət rəsmisi kimi, mən də narahatlıq keçirirəm. Çünki Rusiya bizə qonşu, həm də çox yüksək səviyyəli münasibətlərimiz olan, Türkiyə isə qardaş və çox yaxın bir ölkədir. Biz hər ikisinin də cəlb olunduğu bu məsələdə müdrikliyin, normal məntiqin və dünyadakı mövcud durumun tələb etdiyi məsələlərin nəzərə alınmasını istəyirik. Heç kim maraqlı deyil və heç kim də maraqlı olmamalıdır ki, iki ölkə arasındakı münasibətlər kəskinləşsin. Bu, nə region ölkələrinə, nə də dünyaya heç nə vəd etmir.



**"O rektorların heç biri incik deyildi ki, onların könlünü alaydılar"**

***- Bu, böyük savaşa gətirib çıxara bilərmi?***

- Yox, düşünmürəm ki, bu, savaşa gətirib çıxarsın. Mənə elə gəlir ki, hər iki ölkənin rəhbərliyi bu insidentin çox yüksək səviyyəli qarşıdurma həddinə gəlib çatmasına imkan verməz. Dünya ictimaiyyətinin, digər dövlətlərin reaksiyası da buna yönəlib. Məncə, normal məntiq üstün gələcək və bu problem ətrafında daha vacib olan məsələlər nəzərə alınmaqla emosiyaları cilovlamaq mümkün olacaq.

***- Keçmiş rektorların yaradılan yeni komitələrə sədr seçilməsi onların könlünün alınması kimi yozuldu...***

- O rektorların heç biri incik deyildi ki, onların könlünü alaydılar. Onlar bu məsələnin məntiqini və vacibliyini anlayan insanlardır. Hətta onlar komitə sədri seçilənə qədərki açıqlamalarında bununla bağlı mövqelərini ortaya qoymuşdular. Heç bir problem yox idi. Sadəcə, nəzərə almaq lazımdır ki, bu insanların hər biri uzun müddət ayrı-ayrı təhsil müəssisələrinə rəhbərlik edirdilər. Onlar həm təhsil sahəsində səriştəli və bilgilidilər, eyni zamanda idarəetmə sahəsində çox gözəl təcrübələri var. Parlamentdə də yeni komitələr yaranırsa, məhz təcrübəli insanların imkanlarından istifadə etmək və bu işi onlara həvalə etmək daha doğru olardı. Ona görə də qəbul olunan qərarlar tam məntiqlidir və bunu hansısa subyektiv amillərlə, yaxud da kiminsə razı salınması ilə bağlamaq düzgün olmazdı. Bir də ki, cəmiyyət yenilik istəmirdimi? Buyurun, yeniliklər.

***- Deputat Zahid Oruc "parlamentdə etimadı doğrultmayanlar həmişə olub" söyləyib. Razılaşırsınızmı?***

- Mən düşünmürəm ki, Zahid Oruc hansısa məsələ ətrafında nəsə deyibsə, mən ona şərh verməliyəm. Amma hətta belə fikir səslənibsə və siz sualı bu şəkildə qoyursunuzsa, nəinki parlamentdə, ümumiyyətlə, cəmiyyətdə, dövlət həyatında, ailədə, dostluqda belə etimadı doğrultmayanlar həmişə olub, var və yəqin gələcəkdə də olacaq.

***- Beləlləri hazırkı tərkibdə də varmı?***

- Mən parlamentin yeni tərkibini bu kriteriyadan sərf-nəzər etməmişəm. Ona görə də bununla bağlı hər hansı fikrim yoxdur. Bizim fəaliyyətimiz ictimaiyyətin, cəmiyyətin, o cümlədən mətbuatın, televiziyanın ciddi diqqəti altındadır. Ona görə də burda hansısa əyinti, hansısa bir xoşagəlməz hal dərhal nəzərə çarpır, cəmiyyət də, müvafiq qurumlar da zamanı gələndə ona münasibət bildirir. Bu mənada tələsik və səthi dəyərləndirmələrdən uzaq olmaq lazımdır.

***- "MTN işi" ilə əlaqədar ən çox eşidilən tənqidi fikir budur ki, rəsmi şəxslər çox az danışırlar, rəsmi mətbuat bu mövzudan kənar dayanmağa üstünlük verir. Siz necə düşünürsünüz, belə bir mühüm struktur daxilində bu kimi qanunsuzluqların baş verməsi gözlənilən idimi?***

- Mən düşünmürəm ki, kimlərsə oturur öz işində, yaxud evində müşahidələr aparır, hardansa nələrisə gözləyir. Bilirsiniz, hadisə baş verir və baş verəndən sonra ona münasibət bildirilir. Elə hadisələr var ki, ona dərhal mahiyyətini anlayaraq fikir bildirmək mümkün olur, elə hadisələr də var ki, onlar çox ciddi araşdırma tələb etdiyi üçün barəsində məlumatlar müəyyən qədər xəsisliklə verilir. İndiki halda məlum hadisələr haqqında hər kəsin fikir bildirməsinə ehtiyac da yoxdur. Bu, çox ciddi bir məsələdir. Bununla əlaqədar müvafiq qurumlar fəaliyyət göstərir, iş aparırlar. Hesab edirəm ki, məqamı gəldiyi təqdirdə o qurumların məlumatlarına istinad etmək lazımdır. Hətta lazımdırsa belə, hər şey aydın olduqdan sonra müvafiq dəyərləndirmə ilə çıxış etmək olar. İndiki halda bu məsələnin ətrafındakı ajiotaj, həqiqətə uyğun olmayan, bir çox hallarda heç bir arqumentə söykənməyən, daha çox şişirdilməklə, eləcə də nəyisə ört-bastır etməklə edilən açıqlamalarla yalnız cəmiyyəti çaşdırmaq və aparılan işin mahiyyətinə xələl gətirmək olar. Hesab edirəm ki, bir çox rəsmilər bu məsələ ilə əlaqədar fikir bildirməməklə doğru edir. Yalnız mətbuatın yazdıqlarına istinad etmək isə hər zaman çaşqınlığa gətirib çıxara bilər. Razılaşın ki, bizim bir çoxumuz məsələnin tam təfərrüatı haqda çox az məlumatlıyıq.

***- Ümumilikdə bu qurumun keçmiş rəhbərliyinin dövlətə və millətə xəyanət etdiyini düşünürsünüzmü?***

- İndi bunun adı xəyanətmi, səhlənkarlıqmı, cinayətmi olacaq, bu, yekunda dəqiqləşəcək. Amma görünən odur ki, bəzi işlər burda qaydasında getməyib. Getmədiyinə görə də müvafiq addımlar atılıb. Hesab edirəm ki, bu işin sonunu gözləmək və nəticələri dəyərləndirmək üçün bizim imkanımız olacaq. Amma istənilən halda belə mənfi nəticələrə gətirib çıxaran halların baş verməsini heç kəs təqdir etmir. Mənə elə gəlir ki, yumşaq şəkildə desək, burda doğrudan da etimaddan və səlahiyyətlərdən sui-istifadə halları olub.

❑ Elşad PAŞASOY

# Avropanın təhlükəsizlik sistemi niyə çökdü?

**Fransada baş verən terrordan sonra bu ölkədən, ümumiyyətlə, Avropadan hər gün həyəcanlı xəbərlər gəlməkdədir. Avropanın ən xoşbəxt ölkəsi indi qara günlərini yaşayır. Belə ki, ötən gün yenidən Fransa terror həyəcanı yaşayıb. Paris yaxınlığında yerləşən Monruj şəhərindəki zibilliklərdən birində intihar kəməri tapılıb.**

Fransa polisi silsilə Paris terror aktlarının iştirakçısı 26 yaşlı terrorçu Salah Abdeslama məxsus olduğu iddia olunan intihar kəməri aşkar edib.

Bundan başqa, Avropanın hər yerində terror hədələri alan digər ölkələr də təhlükəsizlik tədbirlərini gücləndiriblər. Məsələn, Belçika təhsil ocaqlarının, metroların fəaliyyətini müvəqqəti dayandırıb. Krallıq, hətta kütləvi tədbirləri də təxirə salıb. Əksər ölkələrdə antiterror tədbirləri gücləndirilib.

Bu yerdə belə bir sual yaranır ki, nə üçün dünya ölkələrinin təhlükəsizlik üzrə sıralamalarında birinci yerdə olan, hər kəsin təhlükəsiz və xoşbəxt ölkə kimi tanıdığı Avropa ölkələrində bu vəziyyət yaranıb. Əksinə, reytinq cədvəlində daha geridə olan Azərbaycan isə hazırda bu ölkələrdən daha təhlükəsiz və daha güvənlidir. Əsas sual budur ki, Avropa ölkələrinin dünya şöhrətli təhlükəsizlik agentlikləri niyə bu halların öhdəsindən gələ bilmir? Bu sistemi bir anda çökdürən güc nədir?

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, burada problemin səbəbi təhlükəsizlik sisteminin zəifləməsi deyil:** "Söhbət ondan gedir ki, Avropada təhlükəsizliyə ciddi təhdidlər var. Yəni bu iqtisadi təhdid də ola bilər, siyasi təhdid də ola bilər. Məlumdur ki, Amerikadakı 11 sentyabr hadisəsindən sonra dini təhdid anlayışı da ortaya çıxdı və bu həm milli təhlükəsizliyə, həm də dövlət təhlükəsizliyinə təhdid kimi qəbul edildi. Məsələn, dünyanın super gücü sayılan Amerikada təhlükəsizliyə təhdid dördüncü səviyyədədir. İqtisadi, siyasi, etnik və təbii təhlükələrin yanında dini radikalizm təhdidi də var. Avropa əvvəl dini radikalizmi təhdid kimi qəbul etmirdi. Lakin ərəb ölkələrində baş verənlər və ABŞ-da törədilən 11 sentyabr hadisəsindən sonra qəbul etməli oldular. Avropanın xüsusi xidmət orqanları gərək bu təhdidi ciddi qiymətləndirib özləri üçün bir nəticə çıxaraydılar. Bundan başqa, bir səbəb böyük miqrant axını arasında filtirasiya tədbirlərinin keçirilməməsini göstərmək olar. Kimliyindən asılı olmayaraq, insanlar hansısa ölkəyə kütləvi şəkildə keçirlərsə, onların məramını və məqsədini aydınlaşdırmaq üçün mütləq onların arasında müvafiq iş aparmaq, ölkəyə daxil olanları filtirasiyadan keçirmək vacib idi. Avropa ölkələri demokratiyanı, humanistliyi əsas iş prinsipi ilə səhv saldırlarına görə belə bir nəticəyə gətirib çıxardı".

**Ekspertin fikrincə, Azərbaycan artıq terror hadisələri ilə bağlı təhlükəni daha öncə yaşadığından bu məsələyə Avropa ölkələrindən daha ciddi yanaşır:** "Bu durumu Azərbaycanla müqayisə etsək, biz artıq bu məsələlərdə 1992-93-cü illərdə baş verən hadisələrdən sonra həssas davranaraq ciddi tədbirlər görməyə başlamışdıq. Təbii ki, Avropa xüsusi xidmət orqanları əməkdaşlarının apardıqları əməliyyat-axtarış tədbirlərini Azərbaycandakı ilə müqayisə edəndə Azərbaycanda bu istiqamətdə tədbirlər daha öncə başlamışdı. Avropanın humanistlik, insan hüquqları prinsipini əsas götürərək xüsusi xidmət orqanlarının işini də çətinləşdirdilər. Məhz bunun nəticəsində belə bir vəziyyət yarandı. Əsas məsələ budur ki, onlar dini radikalizmi ciddiyə almadılar, xəbərdarlıqlara məhəl qoymadılar".



**Arzu Nağıyev: "Avropa ölkələri demokratiyanı, humanistliyi əsas iş prinsipi ilə səhv saldıqlarına görə belə bir nəticə oldu"**



**Ərəstun Oruclu: "Fransız modeli hələ bu hadisələr baş verməzdən öncə də zəif model kimi qiymətləndirilirdi"**

**Politoloq Ərəstun Oruclu isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Avropada vəziyyətin bu cür dəyişməsi Suriya və onun ətrafında baş verənlərlə bağlıdır:** "Dərin kökünə baxsaq Buş administrasiyasının Əfqanıstan və İraq siyasəti uzun illər diktatura rejimində yaşamış ölkələrdə illər boyu yetişmiş problemləri üzə çıxartdı. Bu problemlər də əhali arasında qarşılıqlı təzyiqlərin, yoxsulluğun, təhsilsizliyin və bu kimi sosial-iqtisadi fəsadların nəticəsidir ki, indi radikal şəkildə özünü büruzə verir. Digər tərəfdən də həm Əfqanıstana, həm İraqa, həm Suriyaya olan Qərb ölkələrinin müdaxiləleri son nəticədə ona gətirib çıxardı ki, bu ölkələrin özü Şərq ölkələrində formalaşmış terror təşkilatlarının hədəfinə çevrildi. Başlıca səbəb budur. Həmin yersiz müdaxilələr son nəticədə bugünkü mənzərəni formalaşdırdı. Bu səbəblər aradan qaldırılmasa Avropada da vəziyyət davam edəcək və heç nə dəyişməyəcək. Çünki bu səbəbləri-yoxsulluğu, savadsızlığı aradan qaldırmaq mümkün deyil. Bu ölkələrdə həyat səviyyəsi düzəlmədir ki, insanların düşüncə tərzi dəyişsin və onlardan istifadə edənlər məqsədlərinə nail ola bilməsinlər".

**Ə. Oruclu məsələnin tarixi köklərinə də toxunaraq, Sovet İttifaqının Əfqanıstana müdaxiləsi zamanı bir sıra Qərb dövlətləri tərəfindən radikal dinçilərdən istifadə edilməsini problemin əsas səbəbi kimi göstərdi:** "Bildiyiniz kimi, "əl-Qaida" o dövrdə yarandı və Əfqanıstan faktoru üzərində quruldu. Bu problemlərin aradan qaldırılması onilliklərlə vaxt tələb edilir. Ona görə yaxın müddətdə bu problemin həll olunmasını gözləmək sadəlövhlük olar. İnsanların kütləvi şəkildə qırğını, ölkələrindən didərgin düşməsi, miqrasiyalar nəticəsində bu problem davam edəcək. Bunlar da öz növbəsindən insanlığa nifrəti, radikalizmi tətikləyən amillərdir".

**Ekspert onu da vurğuladı ki, Avropa ölkələrində terrorçuluqla mübarizənin qarşısında duran ən böyük əngəl qanunvericilikdə insan haqlarının müstəsna şəkildə qorunmasıdır:** "Əslində heç bir dövlət terrordan sığortalanmayıb. Avropa ölkələrinin təhlükəsizlik sistemi haqqında isə ümumi danışmaq olmaz. Çünki təhlükəsizlik sistemi Almaniyada, Fransada və digər ölkələrdə ayrı-ayrı modellər üzərində qurulub. Fransız modeli hələ bu hadisələr baş verməzdən öncə də bir çox ekspertlər tərəfindən zəif model kimi qiymətləndirilirdi. Bu model həssas model kimi təqdim olunur. Çünki Fransa Avropanın əsas ölkələrindən biridir və burada insan haqları hər zaman ön planda götürülüb. Fransada polisin vətəndaşa qarşı yoxlama tədbiri keçirməsi üçün o qədər qanuni əngəllər var ki, bu demək olar ki, çox çətin prosesdir. Çünki insanların hüquq və azadlıqları qanunvericilikdə həddindən artıq təmin olunur. Buna görə də insanlara nəzarət etmək mexanizmləri azdır. Hələ terror baş verməzdən öncə də ekspertlər qeyd edirdilər ki, Fransada bunun üçün zəmin var. Problemin əsas səbəbi bundan qaynaqlanır".

❑ **Nərgiz LİFTİYEVA**

# Amerika və Rusiya silahı üçün bazar - Yaxın Şərqdə savaş...



## Siyasi ekspert: "Bu bazarda insan qırğını həmin güclər üçün heç bir dəyər daşımır"

**Yaxın Şərqdə, xüsusən də Suriyada gedən müharibədə diqqət çəkən məqamlardan biri də tərəflərdən birinin əlində ABŞ silahının, o birinin əlində Rusiya silahının olmasıdır. Faktiki olaraq savaşlarda Rusiya silahı ilə Amerika silahı döyüşür. Rusiya təyyarəsi Amerika silahı ilə-"F-16" ilə vurulur, Suriyadakı Əsəd rejiminin əlində isə Rusiya silahı. Buradan belə nəticəyə gəlmək olarmı ki, iri dövlətlər silah satmaq üçün müharibələrdə maraqlıdırlar və bütün konfliktlərin də arxasında onlar dayanır?**

**Politoloq Natiq Miri** hesab edir ki, Yaxın Şərqdə və digər regionlarda təlatümlərin yaşanması, o cümlədən İŞİD kimi terror qruplaşmalarının meydan sulaması qlobal maliyyə şəbəkələrinin təşkil etdiyi projelərdir. Çünki xaos və savaş olan mühitdə böyük pullar qazanılır: "İnsanların bir yerdən başqa bir yerə miqrasiyasından tutmuş, insan orqanlarının satışından, narkotik və silah alverinə qədər hər şey bu şəbəkələrin nəzarətindədir. Bu, bütün zamanlarda belə olub. Həmin böyük maliyyə şəbəkələri iri dövlətlərdə hakimiyyətləri belə idarə edirlər, siyasi qərarlara təsir etmək imkanları var. Suriyada gedən proses də böyük bir planın tərkib hissəsidir. Həm ABŞ, həm Rusiya üçüncü dövlətlərə silah, hərbi texnika satmaqla məşğuldur. Onlara silahlarının satılması üçün konfliktlər, müharibələr lazımdır. Yaxın Şərqdə müharibələr məhz bu güclərin silah satışının çiçəklənməsi üçün lazımdır. Həmin güclər, xüsusən də Rusiya müharibə arealını genişləndirmək üçün bəzən özü də birbaşa savaşa girir. Bu, sonrakı mərhələdə daha çox silah satışına nail olmaq üçün atılan addımlardan sayıla bilər. Silah alverində Fransa və Böyük Britaniya da iştirak edir. Yaxın Şərqdə müharibə ocaqlarının miqyası qəsdən genişləndirilir. Qarşılığında Səudiyyə Ərəbistanı, Qətər və digər pul sarıdan zəngin olan ölkələr milyardlarla dollar xərcləyib ABŞ-dan, Böyük Britaniyadan silahlar alır".

**Politoloq vurğuladı ki, müharibələr, münaqişə ocaqları, terror yuvaları silah alverindən milyardlarla dollar qazanan güclər üçün bazardır. Bu bazarda insan qırğını həmin güclər üçün heç bir dəyər daşımır:** "Terror qruplaşmaları birbaşa silah alverindən paralar qazanan güclərə bağlıdır".

N.Miri təəssüflə söylədi ki, Yaxın Şərqdə və digər münaqişə bölgələrində hakimiyyət başında dayanan qüvvələr qeyd edilən dünya güclərinin əlində alətdir. Onlar istəsələr belə oyundan kənara çıxa bilmirlər. Oyundan kənara çıxmağa cəhd edəni məhv olmaq aqibəti gözləyir. Son 4-5 ildə baş verənləri xatırlasaq, kimlərin məhv edildiyini görəcəyik.

❑ **Etibar SEYİDAĞA**

# Cahangir Hacıyev baş bankir postuna məşhur qanqsterin ifadəsi üzərindən gətiriləcəkmiş - təfsilat

## Hacı Məmmədovun məhkəməsində Elman Rüstəmovun adının hallanmasının əsl səbəbləri üzə çıxır

**Eldar Mahmudov 2004-cü il iyulun 23-də milli təhlükəsizlik naziri postuna təyinat alandan bir neçə ay sonra, 2005-ci il martın 10-da "Qara kəmər" əməliyyatı baş tutdu. 10 il ərzində sifarişli qətllər və adam oğurluqlarını həyata keçirmiş Hacı Məmmədovun bandası ifşa olundu. Çox təəssüf ki, uğurlu bir əməliyyat şəxsi maraqlardan irəli gələn oyunların kölgəsində görünməz oldu.**

İlkin olaraq Hacı Məmmədov birbaşa rəhbəri olmuş general Zakir Nəsirovun üzünə dayandı. Z.Nəsirovu 2 dəfə MTN-ə çağırıb onun özündən birbaşa rəhbərinə qarşı ifadə tələb etdilər. General qarşısına qoyulmuş "ifadə və ya ömürlük həbs" şərtinin sonuncu bəndini qəbul etdi. Generala vəd olunan ömürlük həbs məhkəmə hökmündə öz əksini tapana qədər Hacı Məmmədov Fərhad Əliyevin üzünə dayanmağa da məcbur edildi. Məhkəməsində durub dedi ki, "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlini ona sifariş verən eks nazir Fərhad Əliyev olub. Amma bu, ifadə verilən andan saxta olduğu hər kəsə bəlli idi və sonradan Hacı Məmmədovun bu şərləməsini araşdırmaq kimsənin yadına da düşmədi. Məhkəmə zamanı istintaqın bəzi qətl və adam oğurluqları işləri üzrə alayarımçıq araşdırma apardığı da məlum oldu. Hakimlər "biz ittiham aktından kənara çıxa bilmərik" deyib digər cinayətlərin açılmasına səbəb ola biləcək məlumatların araşdırılmasını önlədilər. Beləcə alayarımçıq istintaq işi natamam məhkəmə prosesində hökm şəklini aldı.

Hacı Məmmədov gəldiyi yerə - MTN-ə qaytarıldı, digərləri isə Bakının dörd bir tərəfindən olan cəza evlərinə köçürüldülər. Hacı Məmmədov bu gün də öz istəyi ilə MTN-də saxlanılır...



Cahangir Hacıyev

Hacı Məmmədovun məhkəməsində araşdırılmayan, diqqət çəkən məqamlar yetərincə idi. Maraqlı olan detallardan biri də məhkəmənin 16 oktyabr 2006-cı il tarixli iclasında Zakir Nəsirov tərəfindən səsləndirilmişdi. Z.Nəsirov həmin iclasda demişdi ki, MTN-də istintaqın gedişi zamanı ona təklif ediblər ki, Milli Bankın sədri Elman Rüstəmovun əleyhinə ifadə versin. Desin ki, Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin xanımının oğurlanmasını Elman Rüstəmov sifariş edib.

Bu yerdə haşiyəyə çıxaq və qeyd edək ki, bir neçə gün əvvəl mətbuatda Cahangir Hacıyevin MTN-in İstintaq Təcridxanasında Hacı Məmmədovla görüşdüyü haqda məlumat yayılıb. Həmin məlumatda bildirilirdi ki, C.Hacıyev H.Məmmədovdan həyat yoldaşının oğurlanmasının təfərrüatlarını soruşub.

Redaksiyamıza daxil olan son məlumatlara görə, Cahangir Hacıyev Hacı Məmmədovla görüşü zamanı aralarında sifarişçinin kimliyi ilə bağlı söhbət olub. Söhbət əsnasında yenidən Elman Rüstəmovun adı hallandırılıb. Lakin bu görüş sonrası H.Məmmədovun baş bankirin Zamirə Hacıyevanın oğurlanmasına bağlılığı haqda hər hansı bir ifadəsi ortaya çıxmadı. Deməli, H.Məmmədovdan belə bir ifadə almaq mümkün olmayıb.

Digər bir maraqlı məqam isə 2013-cü ilin həmin günlərində Hacı Məmmədovun bacısına məxsus əmlakların özgəninkiləşdirilməsi idi. Eldar Mahmudov və sonradan qudası Cahangir Hacıyevin israrla Hacı Məmmədovdan baş bankirin əleyhinə ifadə istəmələrinin arxasında hansı mətləblər dayanır?

Niyə məhz oğurluğu Elman Rüstəmovun təşkil etməsində israr olunur?

Belə məlumatlar var ki, H.Məmmədovdan baş bankirin əleyhinə ifadə istənilməsinin arxasında böyük bir plan olub. Əgər Hacı Məmmədov ondan tələb edilən ifadəni versəydi, yəqin ki, bu gün baş bankir postunda bir başqa şəxs olacaqdı. Bu məlumatları bir qədər də maraqlı edən Cahangir Hacıyevin baş bankir postuna iddialı olmasıdır. Mətbuatdan da bəllidir ki, C.Hacıyev illərlə bu iddia ilə yaşayıb.

Gələn məlumatlar onu deməyə əsas verir ki, Elman Rüstəmovun taleyi H.Məmmədovdan asılı olub. H.Məmmədov isə nədənsə baş bankirin əleyhinə ifadə verməkdən yayınıb.

Yada salaq ki, yazının girişində qeyd etdiyimiz məhkəmə prosesində Z.Nəsirov H.Məmmədovun dəstəsindən pul almasına dair bütün ittihamları rədd etmişdi. General demişdi ki, bir çox adam oğurluqlarının sifarişçisi və yönləndiricisi o dövrdə "Kapital Bank"ın sədr müavini, H.Məmmədovun bacısı oğlu Elçin Quliyev olub.

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycanın yeganə rektor-deputatı...

## Naxçıvan Dövlət Universitetinin rektoru MR-in Ali Məclisinin üzvüdür

**Noyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə 4 universitetin rektoru vəzifədən azad edildi. Buna səbəb rektorların Milli Məclisdə deputat mandatı almalarıdır.**

Ağacan Əbiyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının, Səməd Seyidov Azərbaycan Dillər Universitetinin, Aqiyə Naxçıvanlı Azərbaycan Müəllimlər İnstitutunun, Əhliman Əmiraslanov isə Azərbaycan Tibb Universitetinin rektoru vəzifəsindən azad edildi.

Musavat.com xəbər verir ki, hazırda Azərbaycanda yeganə rektor-deputat Saleh Məhərrəmovdur. Naxçıvan Dövlət Universitetinin rektoru olan S.Məhərrəmov həm də Naxçıvan Ali Məclisinin deputatıdır.

S.Məhərrəmov Naxçıvanda 6 saylı Çərçiboğan seçki dairəsindən Ali Məclisə deputat seçilib.

Xatırladaq ki, rektor-deputatların ya mandatını, ya da rektorluğunu itirəcəyi haqda hələ seçkilərdən əvvəl məlumat vermişdik. Və gözlənildiyi kimi oldu. Yuxarıda adlarını qeyd etdiyimiz rektorlar vəzifəsini itir-



Saleh Məhərrəmov

di. Abel Məhərrəmov isə mandatını itirdi və Bakı Dövlət Universitetinin rektoru vəzifəsində qaldı.

Lakin bunun əksi olaraq Naxçıvan Dövlət Universitetinin (NDU) rektoru S.Məhərrəmov deputat seçildi. O, hazırda rektor olaraq deputat mandatı daşıyan şəxsdir.

Qeyd edək ki, S.Məhərrəmov 2013-cü ilin 17 mayında prezident İlham Əliyevin sərəncamı ilə NDU-nun rektoru təyin olunub. O, hazırda Milli Məclisin deputatı olan İsa Həbibbəylini əvəzləmişdi.

Saleh Məhərrəmov 25 sentyabr 1965-ci ildə Naxçıvanın Şərur rayonunun Alışar kəndində anadan olub. 1991-ci ildən NDU-da müəllim, baş müəllim, dosent vəzifələrində işləyib. 1999-2000-ci illərdə NDU-da Zoologiya kafedrasının, 2000-2013-cü illərdə Təməl tibb fənləri kafedrasının, 2013-cü ildə yenidən Zoologiya kafedrasının müdiri vəzifəsində işləyib. 2011-ci ildə AMEA Zoologiya İnstitutunda doktorluq dissertasiyasını müdafiə edib.

1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

❑ İlkin MURADOV

# Beş göyərçin və 3 ton heroin məsələsi



Samir SARI

Sizcə, hansı daha böyük qəbahətdir: yalan (daha dəqiqi, təsdiqlənməyən) informasiya yaymaq, yoxsa təsdiqlənmiş doğru informasiyaları yazmamaq? Əlbəttə, bilə-bilə dezinformasiya yaymaq böyük qəbahətdir. Həqiqətin ağzına daş basıldığını görüb də susmaq isə hamısından yekə qəbih işdir.

Tutaq ki, bir sayt filan nazirin işdən çıxarıldığını, yaxud çıxarılacağını yazır. Nə olsun? Nə böyük işdir! O vəzifə ona dədəsindən qalıb? Əvvəl-axır onsuz da çıxaracaqlar da. Yoxsa bunu yazanda adam həyəcanlanır, əmək qabiliyyəti, faydalılıq əmsalı azalır? Azalırsa, cəhənnəmə azalsın, gora azalsın.

Əslində nazirlər, komitə sədrləri, digər yüksək vəzifəli şəxslər hər gün işə başlayanda beyinlərinin bir küncündə saxlamalıdırlar ki, yaxşı işləməsələr bir gün onları işdən çıxara bilərlər, pis işləsələr, daha pis olar, tutub basarlar içəri.

"Göyərçin oğrusu tutuldu" başlığıyla xəbər vermək, əlbəttə, asandır, bunu polis də təsdiqləyir, prokurorluq da. Hətta mətbuat xidmətləri öz saytlarına müvafiq informasiya da yerləşdirirlər. Amma baxaq görək, Bəxtiyar Sadıqovun "Azərbaycan" qəzeti ölkəmizdən Gürcüstana keçirilmiş 3 ton (lap olsun 2 ton 850 litr) maye heroinin tutulmasından yazdımı?

Yazmadı. Niyə yazmadı? Axı o, yalan informasiya deyildi, həqiqət idi, Gürcüstanda bütün KİV orqanları bu barədə yazır, danışır, göstərirdi, bizdə isə 3-5 qəzet, sayt yazdı, yerdə qalanları susdu.

Yəni belə çıxır ki, beş-altı göyərçinin oğurlanması, sonra sağ-salamat yiyəsinə qaytarılması 3 ton narkotik maddənin tranzitindən daha vacib məsələdir.

Hərçənd o 3 ton heroin yüz minlərlə narkomanın quş mısalı "uçması"na bəs edər. Beş-altı göyərçin sadəcə havada pərvazlanır, dövrə vurur, sonra yiyəsinin hininə qayıdırsa, heroinlə "uçanlar" yerə düşmür, ya dörd divarın içinə düşür, ya da torpağın altına.

Amma sən narkotik biznesini idarə edənlərdən, hətta bu boyda bəşəri problemdən ümumi şəkildə də yaza bilmirsən, ona görə ki, baronları tanıyırsan və bilirsən ki, yazsan, onlar inciyə, sonra da səni incidə bilərlər. Salamatı televiziya verilişlərini cəmiyyətin zövqünü korlamaqda, saytları yalan informasiya yaymaqda günahlandırıb tənqid etməkdir.

Budur, camaat 40 gündür "MTN işi"dən danışır, işdən qovulanların, bu işlə bağlı tutulanların, istintaqa cəlb edilənlərin sayı-hesabı yoxdur. Ancaq bəzi dövlət strukturları, eləcə də onlara mirzəlik edənlər hesab edirlər ki, bu boyda haqq-hesaba baxmayaraq, media bundan yazmamalıdır.

Niyə, əmoğlu? Nədi, yoxsa şübhələnirsən ki, bu cür yazılar pis ictimai rəy-zad yarada bilər?

Sən kefini sür e, əmoğlu, sən yaxşı oğlansan, yalan informasiya yaymırsan. Amma elə saytlar var ki, gündə yüz xəbərin ürəyini üzürlər, əllərinə nə düşdü, yazırlar, pis nə gördülər, eşitdilər, yazıb-yayırlar. Hər şeyi qara görürlər.

Sənin işin yaxşıdır, oxucuların səndən doğrunu yazmağı tələb etmirlər, demirlər, filan şey filan oldu, sənin qəzetində niyə yoxdur. Amma bizi keçəl edirlər. Elə olur ki, eyni mövzuda dalbadal yeddi dəfə yazırıq, oxucu səkkizinci xəbəri görməyəndə istənilən bir yazımızın altına şərh yazır ki, nə oldu, dəən, satıldınız, bu gün niyə filan məsələdən yazmamısınız.

Camaat bəzən bizdə hətta yalan informasiya da istəyir, əziz həmkar. Xalq istəyir ki, yalan da olsa, düz də olsa, "Nazir tutuldu, evindən milyonlar tapıldı" başlıqlı yazılar çox olsun. Bu, onun arzusudur, nə edək. Hər kəsin nəsə arzulamaq və o arzusunu həyata keçirmək haqqı var. Qoy hökumət xalqın bu arzusunu yerinə yetirsin, biz də yazaq, yalançı çıxmayaq.

Əmin edirəm ki, istənilən yüksək vəzifə yiyəsini tərpədib ortalığa çəkmək kifayətdir ki, "yeddi villası tapıldı", "Bahalı maşınlardan ibarət qarajı aşkarlandı", "Xarici bank hesablarında milyonları varmış" kimi arzu-xəbərlər doğrular.

Bu baxımdan "yalan informasiya yaymaq" söhbəti boş şeydir, biz hələ doğruların dörddə birini yazıb çatdıra bilmirik. "Çatdıra bilmirik" ifadəsinin içində o da var - dövlət təminatı məsələsi...

Yeni MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015



# Pampersin müddəti

Zamin HACI
zaminhaci@gmail.com

**Heç dəxli olmadan getdilər Bəşər Əsəd kimi diktatora, xalqını bəlaya salana yardım elədilər. Bütün yeni silahlarını orda tətbiq elədilər, sınaqdan çıxardılar. Gah sualtı qayıqdan, gah gəmidən qanadlı raket atdılar. Əvəzi nədir? Sadə ruslar Putinin axmaq ambisiyalarının qurbanına çevrilib. Biri mülki olmaqla, 2 təyyarə itiriblər. 250-yə yaxın rus həlak olub. Ukrayna kimi qardaş ölkə ilə savaşırlar. Krımı guya ələ alıblar, amma ora da toksuz, enerjisiz qalıb, əsl biabırçı durumdur. Ukraynanı artıq qazla da hədələyə bilmirlər.**

Deyirlər Türkiyəyə qaz satmarıq. Satma. Bəs kimə satacaqsan? Şara doldurub Qızıl Meydanda oynayacaqsan? Rusiyanın Türkiyə bazarından qazandığı Türkiyənin Rusiyadan qazandığından 5 dəfə çoxdur. Bu bazarı da itirsələr, ətraflarında cəmi 2 dostları qalır: Ermənistan və İran. Əcəb ittifaqdır. Əsl ayı dostluğudur.

Səbəb nədir? Avtoritarizm. Təkəlçilik. Demokratiyanın yoxluğu. Qərarları, taleyini millət özü yeritməlidir. Bir-iki adama versən, bəla olur. Həm özünə, həm başqalarına. Bəşər Əsədi müdafiə eləməyə gedəndə özün Bəşər Əsəd olursan. Bəzi ağzıgöyçəklər hələ də Suriya probleminə görə Qərbi qınayır. Ancaq heç deyən yoxdur ki, nədən bu dövlət 50 ilə yaxındır Əsəd ailəsinin istismarı altındadır, bu ailə sülaləsi ilə haracan getmək istəyirdilər? İndi orda münbit şəraitə, gübrəliyə düşüb cücərən İŞİD, "Ən Nüsra cəbhəsi", nə bilim, YPG kimi alaq otlarını elə Hafiz və Bəşər Əsədlər yetişdirib. Avtoritarizm, totalitarizm nə qədər uzun çəkirsə, o yıxılanda qan da o qədər çox axır. Tarix bunun saysız-hesabsız örnəkləri ilə doludur. O üzdən sivil dünyada bir şəxsin uzun müddət, dəyişmədən rəhbərlik eləməsinə qadağalar qoyan qanunlar düzəldiblər. Su da bir yerdə çox qalanda iylənir. Bizim Azərbaycanın taleyi baxımından qorxumuz həm də buna görədir. Yoxsa aldadıcı sabitliyə əl çalıb yaşayardıq. Tipik bir örnək göstərəcəyəm.

Təzəlikcə cəbhəçi Həsən Kərimov öldü. Həsən bəyi 90-cı illərdən yaxşı tanıyırdım, "Azadlıq" qəzetinin Xaqani küçəsindəki məşhur redaksiyasındakı çayçıda çox söhbətlərimiz olmuşdu. Onun ölümünə ictimai sektorda çox insan kədərləndi. Səbəb sadə idi: Həsən bəy təmiz yaşamışdı, vicdanlı yaşamışdı. AXC-Müsavat cütlüyünün hakimiyyəti dönəmində (zəhləmgetmiş yapistlər demişkən) Həsən bəy Bakının ən mərkəzində, Səbayel rayonunda icra hakimiyyətinin başçısı işləmişdi. Ancaq bir manat rüşvət almamışdı. O üzdən Yeni Günəşlidə kasıb evində yaşayırdı. Mən onun iki oğlunu da tanıyırdım. Çox sadə, mərifətli uşaqlar idilər, yazıqlar ikisi də yanılmıramsa, 2009-cu ildə, bir ayın içində, faciəli şəkildə həlak oldular. O vaxt deyirdilər bunu Həsən bəyə qarşı qəsdən ediblər. Ancaq sübutum yoxdur, bir söz deyə bilmərəm.

Sözümün canı nədir? İndi çoxlarının, bəzi məsələlərə görə elə mənim özümün də bəyənmədiyim AXC hakimiyyətində rüşvətxorluq yox idi. Əsas da ona görə ki, Elçibəy özü, necə deyərlər, "almırdı". Əgər o hakimiyyətin hansısa rüşvətxorluq, hakimiyyətdən sui-istifadə halları olsaydı, yapistlər bunun haqqında kinolar çəkərdilər. Bircə fakt da yoxdur, təsəvvür edirsinizmi? Hətta hansısa qanunsuzluğun, müəyyən pul toplanmasının da sonunda vətən naminə, Qarabağ savaşı üçün edildiyi bilindi, o səbəbdən yapistlər qurdalamadılar. AXC dövründə Qazax Rayon İcra Hakimiyyəti başçısının xanımı hinduşka saxlayıb yerli bazarda satırdı ki, ailə dolana bilsin! Bu millət elə bir hakimiyyəti bəyənmədi. Yerinə keçi fermaları saxlayan MTN generallarının hakimiyyətini gətirdilər. "Hər xalq öz hakimiyyətinə layiqdir" fikrini sübuta yetirdik.

Deyə bilərlər AXC nə yatdı, nə yuxu görsün. Əlbəttə. Cəmi 1 il. Bəs mən yuxarıda nəyi yazmışam?! Hakimiyyəti tez-tez dəyişmək lazımdır. Ukraynada Maydan hərəkatı vaxtı belə bir yaxşı şüar yazmışdılar: "Hakimiyyət pampers kimidir, gərək tez-tez dəyişəsən". Uşaq saxlayanlar müəyyən vaxtdan, misal üçün, 4-5 saatdan artıq dəyişilməyən pampersin necə iy verdiyini bilirlər. Yaxın Şərqdən gələn də həmin iydir.

# Dövlət başçısından məmurlara "stresə hazır olun" mesajı



# Başlandı... İqtidar komandasına gənclər gəlir

## Prezident 38 yaşlı Ramin Quluzadəni rabitə və yüksək texnologiyalar naziri əvəzi təyin etdi; 2012-ci ildə müəyyən səbəblərdən ertələnən iki proses indi paralel olaraq aparılır: harınlamış nazirlər cəzalandırılır, təyinatlarda gənc kadrlara üstünlük verilir...

**Oktyabrın 17-də milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılmasından sonra prezident İlham Əliyevin hakim komandaya "əl gəzdirəcəyi", tədricən yeni dövrün tələblərinə uyğun gənc kadrları önə çəkəcəyi gözlənilirdi. Əslində komandanın gəncləşməsi prosesi 2012-ci ilin sentyabr ayında başlamışdı.**

Xatırlayırsızsa, həmin dönəmdə prezident üç gənc kadrı vəzifəyə təyin etdi. Elşad İskəndərov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Fərhad Məmmədov Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru, İnam Kərimov isə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ("Asan Xidmət") sədr təyin olundu. *(Sonradan müəyyən səbəblərdən E.İsgəndərov işini itirdi).*

Xaricdə təhsil almış, bir neçə xarici dil bilən, ənənəvi hakimiyyət regionundan olmayan şəxslərin önə çəkilməsi yeni siyasi kurs hesab oluna bilərdi. Bu dəyişikliklərin 2013-cü ilin prezident seçkilərindən sonra daha da genişlənməsi proqnozlaşdırılırdı. Amma o zaman yalnız iki nazir postu ilə vidalaşdı. Məlumatlar vardı ki, hakimiyyət strateqləri oliqarxiyanın kök saldığı və inhisara alınmış iqtisadi sahədə kadr islahatlarını "müvafiq zaman" yetişənə qədər təxirə salmağı uyğun bildiyindən proses səngidi. Çünki bu sahədə radikal dəyişiklik oliqarxiyanı qorxuda və hökumət daxilində destabilizasiya yarada bilərdi. O da bildirilirdi ki, gənc kadrların vəzifə təyinatları iqtidar daxilində narahatlıqlar yaradıb. Bir çox "qoca məmurlar" bu dalğanın böyüyəcəyindən və enində-sonunda onların mövqeyinə sarsıdıcı zərbə vuracağından əndişələnib və müəyyən müqavimət də var.

Bu ilin əvvəlindən başlayaraq isə prezidentin keçirdiyi bütün müşavirələrdə "hövsələm tükənib" kimi ifadələrlə ayrı-ayrı nazirliklərin rəhbərlərini sərt tənqid etməsi komandada gözlənilən dəyişikliklərin artıq zamanının çatdığına işarə idi.

Aydındır ki, iqtidarda ciddi kadr dəyişikliyinin müəyyən riskləri həmişə olub və yenə də var. Çünki illərdir vəzifə başında olan məmurlar hakimiyyət daxilində "kök salsa" bilib və bu kimi dəyişikliyə qarşı təşkilatlana və müqavimət göstərə də bilirlər. Təsadüfi deyil ki, Eldar Mahmudov çetesinin ifşasından sonra məlum oldu ki, "təmizlənmə" təkcə MTN-də deyil, generalitetin "kök atdığı" digər dövlət strukturlarında da aparılmalıdır. Ancaq bütün ehtiyatlılığa rəğmən hakimiyyət daxilində ciddi bir islahat, kadr yenilənməsinin düyməsinə basılıb.

E.Mahmudovun işdən uzaqlaşdırılmasına dair rusiyalı ekspertlərdən birinin rəyini xatırlamaq yerinə düşər: "Bu, onun əlamətidir ki, ola bilsin İlham Əliyev köhnədən qalma məmurları və Heydər Əliyev dövrünün administrasiyasını tədricən hansısa yeni fiqurlarla əvəzləyib dəyişmək, komandasını yeniləmək barədə düşünür".

Noyabrın 25-də prezident Ramin Quluzadəni rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini təyin edib. "Trend"in məlumatına görə, R.Quluzadə elə həmin gün nazirliyin kollektivinə təqdim edilib. Yeni nazir müavini 1977-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetini magistr dərəcəsi ilə bitirib.

Məlumata görə, Ramin Quluzadə Heydər Əliyev Fondunda İşlər Departamentinin direktoru vəzifəsində çalışıb. 2004-cü ildən fondda fəaliyyət göstərən Ramin Quluzadə bu qurumun təşkilati işlərində, respublika daxilində və xarici ölkələrdə sosial, humanitar layihələrin həyata keçirilməsində iştirak edib.

Ramin Quluzadə prezidentin 2014-cü ildə imzaladığı sərəncama əsasən, Heydər Əliyev irsinin qorunması və təbliğində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif edilib. Beləliklə, boş qalmış nazir postu 38 yaşlı R.Quluzadəyə həvalə olunub.

Qeyd edək ki, Əli Abbasovdan sonra rabitə və yüksək texnologiyalar nazirinin səlahiyyətlərini İltimas Məmmədov icra edirdi.

Göründüyü kimi, 2012-ci ildə müəyyən səbəblərdən ertələnən iki proses indi paralel olaraq aparılır. Dövlət başçısı həm komandasında harınlamış nazirləri cəzalandırır, həm də təyinatlarda gənc kadrlara üstünlük verir. Prezidentin noyabrın 24-də Milli Məclisin iclasındakı çıxışında da yenə məmurlara ünvanlanmış mesajlar yer alıb.

Dövlət başçısı deyib ki, ölkəmizin uğurlu inkişafı üçün xoşagəlməz hallarla mübarizə daha da gücləndiriləcək, xüsusilə korrupsiyaya və rüşvətxorluğa qarşı cəza tədbirləri davam etdiriləcək. Neftin qiymətinin düşməsi ilə yeni bir mərhələnin başlandığını xatırladan İ.Əliyev "bu, bizim iqtisadiyyat üçün, məmurlar üçün bir stressdir ki, indiki şəraitdə də nəyə qadir olduğumuzu göstərməliyik" deyib.

Ölkə başçısının mesajlarından çıxan nəticə həm də odur ki, yeni dövr üçün ciddi siyasi, sosial və iqtisadi islahatlarla bərabər məmurlar həm də "streslərə" hazır olmalıdır.

Odur ki, siyasi komanda parlament seçkilərindən dərhal sonra daha kardinal dəyişikliyə hazır olmalıdır.

❑ **"Yeni Müsavat"**

## Dünya 24 noyabrdan əvvəl və sonra...



# Türkiyə Rusiyanı imperiya qürurundan vurdu - yeni təfsilat, dərslər

### 224 nəfərlik sərnişin təyyarəsinin məhvindən elə də üzülməyən Kremlin Ankaraya qəzəb püskürməsinin ilginc pərdəarxası; "Su-24" insidenti qardaş ölkənin sıradan bir dövlət olmadığını təsdiqləməklə yanaşı, Azərbaycana da mesajdır...

**Rusiya əməlli-başlı "Su-24" qırıcısının vurulmasının şokunu yaşayır - bir az da isterik şəkildə. Özü də bu, təkcə ölkənin rəhbərliyi səviyyəsində yox, bütövlükdə toplumu, onun aparıcı KİV-ləri və ictimai-siyasi, ekspert dairələri səviyyəsində özünü qabarıq şəkildə büruzə verməkdədir.**

Prezident Vladimir Putinin Türkiyənin özünümüdafiə addımını haqsız və kəskin şəkildə "İŞİD havadarlarının Rusiyaya arxadan zərbəsi" adlandırması və Ankaranı hədələməsi, Moskvada Türkiyə səfirliyi qarşısında keçirilən etiraz aksiyaları, Rusiya XİN-in Türkiyəyə nota verməsi, avantürist Jirinovskinin qardaş ölkəyə müharibə elan etmək və embarqo qoymaq çağırışları və s. yaşanan isterik ovqatın parlaq təzahürüdür.

İlk baxışda belə reaksiyalar Rusiya əleyhinə beynəlxalq sanksiyalara qoşulmayan yeganə NATO ölkəsi kimi Türkiyəyə münasibətdə şimal qonşumuzun qeyri-adekvat və nankor addımı, eyni zamanda ağılsızlığı kimi görünür. Lakin anlamaq mümkündür: zarafat deyil, II Dünya savaşından, "soyuq müharibə"dən sonra ilk dəfə Rusiya hərbi maşını havada, nümayişkaranə şəkildə məhv edilib, özü də bunu hansısa Avropa dövləti, ABŞ yox, məhz Rusiyanın tarixi rəqibi Türkiyə edib.

Bunun da hər şeydən öncə Putin daxil, rusların son vaxtlar sürətlə dirçəlməkdə olan və qlobal təhlükə kəsb edən qorxulu imperiya ambisiyalarına, imperiya qüruruna və özünəvurğunluğuna, dünyadakı "asıb-kəsən" imicinə və mifik hərbi qüdrətinə sarsıdıcı zərbə endirilib. Kremli qəzəbləndirən ən əvvəl budur. Misirdə İŞİD tərəfindən Rusiyaya məxsus mülki təyyarəsinin məhv edilməsi və 224 nəfərin həlak olmasına Putinin bunca qıcıqlı reaksiya verməməsinin əsas səbəbi də budur - imperiya qürurunu Türkiyənin, NATO üzvünün tapdaması.

*****

Lakin deyirlər "Tünd sirkə öncə öz qabını sındırar". Yəni Moskvanın qəzəbi, isteriyası böyük ölçüdə elə özünə qalacaq və altını ən çox özü çəkəcək. Hər halda, bu fakt göstərdi ki, Rusiya üçün, Putin üçün bölgəmizdə, dünyada 2008-ci ildə Gürcüstandakı "5 günlük müharibə" ilə boy verməyə başlamış əsassız imperiya ambisiyalarını cilovlamağın vaxtı çatıb.

Türkiyə isə bununla nümayiş etdirdi ki, o, Rusiyadan ötrü Ukrayna, yaxud hərbi təyyarələrinin meydan suladığı Suriya tipli sıradan bir dövlət deyil. Ciddi dövlətdir, qlobal və regional gücdür və o, öz qulağının dibində Rusiyanın asıb-kəsməsinə, hərbi yumruq silkələməsinə, üstəlik, qardaş ölkənin bölgədəki köklü maraqlarına təhlükə yaratmasına uzun müddət seyrçi qalmayacaq. Ankara Kremli, nəhayət, onunla hesablaşmaq zərurəti qarşısında qoyub, prezident Ərdoğanın aydın şəkildə ifadə elədiyi kimi, Türkiyənin milli təhlükəsizliyi ilə oynamağı heç kimə, o cümlədən Rusiyaya bağışlamayacağını anladıb.

Bu xüsusda Türkiyə sözsüz ki, rusun gücü qarşısında ortaya güc qoydu, bütövlükdə demokratik dünyanın, Qərbin, Avropanın uzun müddət risk eləmədiyi iradəni göstərdi; beynəlxalq birliyə yaxşı mənada töhfə verdi. Təsadüfi deyil ki, ABŞ da NATO dərhal Ankaranın yanında yer aldı. Çünki NATO üzvü Türkiyə onların əvəzindən, onların adından da Rusiyaya qulaqburması verib, Ərdoğan faktiki, Qərb liderlərindən heç birinin bacarmadığı cəsarəti göstərib - Putinin "quyruğunu tapdayıb", həm də ağrılı şəkildə tapdayıb.

***

Bu və başqa səbəbdən ABŞ, NATO gözlənildiyi kimi, dərhal Türkiyənin yanında yer aldı. Onu da unutmaq olmaz ki, Ankara-Moskva işbirliyi çoxdan Rusiyaya qarşı iqtisadi-maliyyə sanksiyaları tətbiq edən Qərbi, Avropa Birliyini narahat edirdi. Vaşinqton və Brüssel əlbəttə ki, çoxdan marağında idi ki, bu münasibətlər dondurulsun, irəli getməsin. Nə qədər qəribə də olsa, indi Rusiyanın özü insidentdən yüz faiz məmnun qalan Qərbə bu yöndə yardım edir.

Ən absurdu isə özü iqtisadi-ticari sanksiyalar altında ola-ola Moskvanın Ankaranı iqtisadi-ticari sanksiyalarla hədələməsi, öz turistlərinin Türkiyə səfərlərinə, Türkiyə kənd-təsərrüfatı məhsullarının idxalına yasaq qoymasıdır. Halbuki adi məntiq diktə edir ki, bunun altını ən çox elə Rusiya çəkəcək. Çünki Rusiyanın kasad büdcəsində Türkiyə bazarı mühüm rol oynayır: Türkiyə təbii qaza ehtiyacın 60%-ni Rusiya qazı hesabına ödəyir, Ankara bu qazdan, "Türk axını" layihəsindən imtina edib, üzünü İran və ya Azərbaycan qazına tutsa, necə olar, Rusiya büdcəsi daha çox itirər, yoxsa Türkiyə? Və ya AKP hökuməti Moskva ilə 20 milyard dollarlıq AES tikintisi haqda anlaşmanı zibilliyə tullasa, ziyanını kim görər? Ümumən, sanksiyalar məsələsində Türkiyə Qərbin yanına qayıtsa necə?

***

Beləcə, Rusiya həmişə olduğu kimi, öz ampluasındadır - günahı yenə başqasında, dünənədək ona tərəfdaş, hətta "nəfəslik" olmuş ölkədə axtarır. Bu, Kremlin müttəfiqlik münasibətlərində nə dərəcədə etibarsız olduğunu bir daha əyani nümayiş etdirir və Moskvaya hələ də hansısa ümidlər bağlayan Azərbaycana da mesajdır.

"Su-24" insidentinin ən mühüm dərslərindən biri budur: Azərbaycan bundan sonra qardaş ölkədən daha möhkəm yapışmalıdır. Həm də o səbəbə ki, Türkiyədən yapışmaq - güclü və haqlıdan yapışmaqdır, Qərbdən, ABŞ-dan yapışmaqdır. Unutmayaq ki, dünya bu insidentdən sonra artıq başqadır. Dost-müttəfiqlərin dəqiqləşməsi prosesi artıq sürətlənib.

Odur ki, rəsmi Bakının Ankaranın yanında olduğunu hansısa formada qardaş ölkəyə çatdırmasına tarixi zərurət var. Bu - ən əvvəl bizim qardaş qarşısında, son günlərədək rusun amansız bombardmanına məruz qalan Suriya türkmənləri qarşısında vəfa borcumuzdur. Təbii ki, eyni borc cəmiyyətimizin də üzərinə düşür...

❑ **Zahid SƏFƏROĞLU**

---

# Türkiyənin yanında, Rusiyanın qarşısında...



**Rauf ARİFOĞLU**

**Türkiyəmizin yanındayıq. Canımızla, ruhumuzla, dualarımızla. Türkiyə Azərbaycan deməkdi, Vətən deməkdi; Vətənə sevgidə, dəstəkdə şərt ola bilməz, tərəddüd heç olmaz; Rusiya ilə müqayisə, "...bəlkə də" kəlməsi ümumiyyətlə ayıb. Burada tərəf Türkiyə və Rusiya deyil ki. Biz özümüzük tərəf, bir də Rusiya...**

Bizim hava sərhədlərimiz İran təyyarələri tərəfindən pozulanda nələri yaşadıq, millət və toplum olaraq! Necə əzildik; balacalandıq. İran rejimi bizi alçaltmışdı; kiçiltmişdi, hədələmişdi, qürurumuzu əzmişdi...

Xatırlayan varmı? Türk Şahinləri gəldi, Göyümüzdə uçdular; əzinikliyimiz keçdi, böyüdük, dirçəldik, Meydanlara çıxdıq, türk olmağın ayrıcalığını yaşadıq; arxamızda Türkiyə kimi dövlətin, bir varolma Qarantiyasının mövcudluğunu qəbullandıq və sevindik...

O gün Azadlıq Meydanı nə gözəldi. O gün qarşımızdan gələn İnsanımız necə də möhtəşəmdi, doğma idi, böyükdü, inamlı idi...

Bunu bizə Türkiyə yaşatdı. Çünki Türkiyə qeydsiz-şərtsiz, hər zaman Azərbaycanın yanındadır. Bir çoxumuzun sevmədiyi, tənqid etdiyi Ərdoğan hökuməti nə zaman Azərbaycanın arxasından qaçdı ki? *(2009-dan, fraqmental bir yanlışlıqdan sonra belə bir tərəddüd heç olmadı ki...)*

İndi informasiya və döyüş cəbhəsində Türkiyə ilə Rusiya üz-üzə gəlib. Ortadakı durum heç ürəkaçan deyil. İstəmədiyimiz bir səhnə. Rusiya ilə Türkiyənin dost olması bizim də işimizə yarayır. Bu dostluqdan Türkiyə, Türk milləti də faydalanır. Lakin ruslar artıq Türkiyəyə meydan oxuyursa, sərhədlərini pozursa, onu kiçik düşürməyə çalışırsa, canı canımızdan, qanımızdan olan Suriya Türkmənlərini, bizim kimi, Bayat Boyundan olan soydaşlarımızı qətlə yetirirsə, bunun cavabı olmamalıdırmı? Buraxsınlar, Türkiyənin, onun Silahlı Qüvvələrinin reputasiyasını yerlə-yeksanmı etsinlər.

Türkiyə mütərəqqi dünyanın və türk ulusunun hamısının adından Rusiyaya , onun hər gün artan imperiya ambisiyasına bir dərs verdi. Ağzının üstündən balaca bir sillə vurdu. Əmin ola bilərsiniz, bundan belə rus uçaqları Türkiyə sərhədini pozmayacaq, özlərinə çəki-düzən verəcəklər.

Bakıdakı "rus uşaqları" var ha, Türkiyəyə qarşı yazan, danışan vətəndaşlarımız; bizim cəmiyyət də onların ağzının üstündən bir tərs sillə ilişdirməlidir. 200 ildir Azərbaycana ancaq pisliklər etmiş bir imperiyaya hər hansı yolla haqq qazandıranlar bizdən deyil, bizə qarşıdır, indiki və gələcəkdəki xəyanət çetesidir.

Əminəm ki, Azərbaycan xalqı hər zaman olduğu kimi, bu dəfə də Türkiyənin yanında olduğunu bütün halında sübut edəcək.

Qanı-canı, ruhu və duaları ilə.

---



## "Türkiyəyə olan hörmətim daha da artdı"

**Odessa vilayətinin qubernatoru Mixail Saakaşvili Türkiyənin vurduğu rus təyyarəsilə bağlı insidentə münasibət bildirib. O, bu haqda facebook səhifəsində yazıb. Saakşavili Türkiyəyə rəğbətini və Putinə nifrətini belə ifadə edib: "Türkiyəyə hər zaman böyük hörmətlə yanaşmışam, bu gün hörmətim daha da artdı. Putin hər zamankı kimi yalan danışır. Onun təyyarəsi Türkiyə ərazisində olub və Suriyanın o hissəsi ilə uçub ki, orada ümumiyyətlə İŞİD yoxdur. Amma əvəzində Əsəd rejiminin xeyli düşməni var. Bununla bir daha sübut olundu ki, beynəlxalq terrorizmlə mübarizədə Putin işə yaramaz müttəfiqdir".**

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015



# Müxalifət üçün beş yüz gün...

Hüseynbala SƏLİMOV

**Rusiya indi bir güzgü kimidir. Bəzi keçmiş sovet ölkələrindəki siyasi vəziyyəti yetərincə dərk etmək üçün bu güzgüyə baxmaq lazımdır. Məsələn, mən Azərbaycanda bəzi məsələləri başa düşmək üçün tez-tez bu "güzgü"yə baxıram və mənə elə gəlir ki, bu halda bəzi şeyləri daha yaxşı başa düşürəm, çünki hər iki halda-Rusiyada da, Azərbaycanda da siyasi ssenaristlər eynidir...**

Bu yaxınlarda rus mətbuatında "Yabloko" bloku ilə bağlı yazılanları oxuyandan sonra da bəzi şeyləri daha yaxşı başa düşməyə başladım. Amma öz içimdə, daxilimdə bir üsyan da duydum...

Ona görə ki, Q.Yavlinski də köhnə siyasət kişilərindəndir. Mənim o vaxt dilə gətirilən ideyaların çoxu hələ də yadımdan çıxmayıb. Bəli, "500 gün proqramı"nı da xatırlayıram... O vaxt Q.Yavlinski bütün ölkəni böhrandan və rəzalətdən çıxarmağa israrlı idi.

Amma indi "Yabloko" bir siyasi təşkilat və bir müxalifət strukturu kimi özü neçə illərdir böhran içindədir. Düzdür, artıq Yavlinski bu blokun rəhbəri deyil, amma onun liderlərindən biri olaraq qalır...

Təsəvvür edin, neçə ildən sonra bu blokun liderləri belə bir fikrə gəliblər ki, heç kim bloka iki dəfədən artıq rəhbərlik etməməlidir. Bunu oxuyanda özüm də bilmədim ki, ironik təbəssüm necə məni götürdü...

Məsələ bundadır ki, bu məsələ bizdə çoxdan sınaqdan keçirilib. Amma heç bir nəticəsi olmayıb. İndi rusiyalı qardaşlarımız buna cəhd edirlər. Olsun. Amma bəri başdan deyirəm ki, bu, elə bir nəticə verməyəcək. Üstəlik, rus demokratlarının bu illər ərzində düşünüb-daşınıb yalnız bunu tapmağı bir daha deyirəm ki, məndə gülüş doğurdu...

İndi məndə hətta ötən illər, keçmişlə bağlı şübhələr yaranıb. Təbii ki, o vaxtlar mən "500 gün" proqramını oxumamışdım. Amma onun haqqında çox eşitmişdim. Nədən Q.Yavlinski müxalifət üçün, özünün partiyası üçün belə bir dirçəliş proqramı hazırlamır? Bu yaxınlarda oxudum ki, Q.Yavlinski öz kitabının - "Əyalət avtoritarizmi" kitabının təqdimatını keçirib. Mən bilmirəm o kitabda nə yazılıb. Hətta onu da bilmirəm ki, həmin kitabda müxalifətin düşdüyü vəziyyəti analiz etməyə cəhd göstərilibmi? Bilmirəm. Amma bunsuz o kitabın nə dəyəri?..

İndi bir az özümüzə qayıtmaq istəyirəm. Bir dəfə müxalifət partiyalarından birində insanların rəhbər strukturlara düşmək üçün necə dəridən-qabıqdan çıxdıqlarını görəndə ayaqüstü söhbətlərdə təklif etdim ki, qoy, həmin adamlar öz təkliflərini, proqramlarını təqdim etsinlər. Söhbətdəkilərin hamısı mənim fikrimi alqışladılar. Amma məsələ bundan o tərəfə də getmədi...

Sonra həmin partiyada rəhbər də dəyişdi. Yenə də gözlədim ki, hansısa təklif, hansısa proqram olacaq. Fəqət, liderlik üstündə qalmaqal yaşandı, amma heç kim proqram və yaxud təkliflər paketi təqdim etmədi...

Bu, məni çox məyus etdi. İndi "Yabloko"nun təklifini oxuyanda da bir məyusluq hissi məni tərk etmir. Düşünürəm ki, liderlik məsələsinin özünün mahiyyətinə baxış dəyişməlidir. Bəli, hamı rəhbər strukturda təmsil olunmaq istəyir, amma hamı ideoloq olmur, hamı ideya generatoru olmur...

Ona görə də Amerika modelinə keçmək lazımdır. Orada partiya fəalları sadəcə, seçki fəallarıdır. Onların işi partiyanın seçki işlərini təşkil etməkdir və partiyanın səylərinin böyük bir hissəsi buna yönəlir. Amma "beyin mərkəzləri" ayrıdır. Liderlər ayrıdır. Bilmirəm, Azərbaycanda bunu təşkil və ya təbliğ etmək nə dərəcədə mümkündür? Onu bilirəm ki, belə olsa, işlər daha effektli olar...

Azərbaycanda müxalifətdə iki dəfəlik məhdudiyyəti tətbiq etdilər. Heç nə dəyişmədi. İndi Rusiyada bunu tətbiq etmək istəyirlər. Olsa-olsa bunun yalnız nümunə kimi əhəmiyyəti ola bilər. Bəlkə cəmiyyətdə, siyasi partiyalarda belə qaydaların oturuşması siyasi liderləri tandemokratiyalardan və ya hakimiyyətdə qalmaq üçün göstərdikləri müxtəlif siyasi tryuklardan çəkindirə bilər...

Təbii ki, hər halda, tamam əhəmiyyətsiz məsələ də deyil. Amma bir daha belə bir fikri vurğulayırıq ki, iki dəfəlik məhdudiyyətin qəbul edilməsi müxalifətin bütün problemlərini həll etmək iqtidarında deyil...

Həm də partiyalara onların əsas funksiyasını xatırlatmaq və hətta deyərdik ki, qaytarmaq lazımdır. Bunun yolunu bir az əvvəldə yazdıq. Deməli, prinsipcə, o qədər də ümidsiz vəziyyət deyil, sadəcə, müxalifət böhrandan çıxarmaq məsələsində bir az israrlı olmaq yetər...

# Qarabağ məsələsi Avstraliya parlamentində müzakirə edildi

## Ermənilər Bakıda verdiyi sözü tutan avstraliyalı deputata qarşı hücuma keçib

**Qərbi Avstraliya bölgəsinin millət vəkili və Avstraliya-Azərbaycan dostluq qrupunun üzvü Luke Simpikins Qarabağın işğalı məsələsini Federal Parlamentdə müzakirəyə çıxarıb.**



**Avstraliyalı deputat ermənilərin Azərbaycana aid torpaqların 20 faizini işğal etdiyini, nəticədə yüz minlərlə azərbaycanlının yurdsuz-yuvasız qalaraq qaçqın və köçkün düşdüyünü bildirib. Millət vəkili Luke Simpkins beynəlxalq hüquq normalarına zidd olaraq Qarabağın hələ də işğal altında qaldığını vurğulayıb. Dostluq qrupunun üzvü bunları söyləyib:** "1992 və 1993-cü illərdə Ermənistan Azərbaycanın torpaqlarını beynəlxalq hüquqa zidd olaraq işğal edib və bunun nəticəsində 350 min azərbaycanlı Ermənistandan qaçqın düşmüş, 750 min azərbaycanlı isə Qarabağdakı evlərini və torpağını itirmişlər. 20 ildən artıqdır ki, 1 milyondan artıq azərbaycanlı atalarının torpaqlarına gedə bilmir. Beynəlxalq hüquqa zidd olaraq işğal edilən Qarabağı Avstraliya da heç vaxt bir dövlət olaraq tanımamalıdır".

**Çıxışının davamında avstraliyalı deputat Kəlbəcərə, dədə-baba yurdlarına gedərkən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevdən də bəhs edib.** "2014-cü ildə 3 Azərbaycan vətəndaşı öz torpaqları olan Qarabağa ziyarətə gedərkən Ermənistan hərbçiləri tərəfindən həbs edilib və işgəncəyə məruz qoyulub. Bu üç azərbaycanlıdan biri olan Həsən Həsənov öldürülüb. Digər iki nəfər isə hələ də həbsdədir. Bu məsələ ilə bağlı Avstraliya xarici işlər nazirini Ermənistana zəruri təzyiqləri göstərməsi ilə əlaqədar məlumatlandırmaq istərdim" - deyə, deputat bildirib.

Millət vəkili Luke Simpkinsin Federal Parlamentdə etdiyi çıxışdan sonra isə Sidneydəki erməni diasporu hərəkətə keçib. Bu barədə musavat.com-a türk diasporunun önəmli nümayəndələrindən biri, "Zaman-Avstraliya" qəzetinin baş redaktoru Enes Cansevər məlumat verib. Enes Cansevərin dediyinə görə, sosial media üzərindən adıçəkilən deputata yönəlik ağır həqarət mesajları ünvanlayan diaspora erməniləri çeşidli yollarla onun əleyhinə kampaniyalara start veriblər.

**Bu arada Türkiyə diaspora təşkilatı olan Avstraliya Türk Müdafiə İttifaqı (ATA-A) isə mətbuat üçün açıqlama ilə çıxış edib. Qurum Avstraliyadakı Türkiyə və Azərbaycan vətəndaşlarını millət vəkili Luke Simpkinsə dəstək verməyə çağırıb. Məsələ ilə bağlı Zaman-Avstraliya qəzetinə açıqlama verən ATA-A-nın baş katibi Günəş Güngördü, federal düzeydəki çalışmalarının davam etdiyini və federal millətvəkilləriylə danışıqlarda Qarabağ gerçəklərini anlatmağa davam edəcəklərini bildirib. Güngördü artıq erməni diasporunun Avstraliyada istədiyi şəkildə at oynada bilmədiyini xatırladıb:** "Qərbi Avstraliya millət vəkili hörmətli Luke Simpkinsin federal parlamentə Qarabağ gerçəyini daşıması çox önəmli hadisədir. Bizlər də ATA-A olaraq, sözdə soyqırım iddiaları barədə həqiqətləri və Qarabağ gerçəklərini davamlı şəkildə, həm federal, həm də əyalət millət vəkillərinə çatdırırıq. Bundan sonra da bu işi davam etdirəcəyik. Keçən aylarda Avstraliya federal parlamentində millət vəkillərini tək- tək məlumatlandırdıq. Məlumatlandırdığımız bəzi millət vəkilləri Azərbaycana getdilər. Gücümüzü bir araya gətirincə nəticəsi də yaxşı olur. İndi də hörmətli millət vəkili Qarabağ gerçəklərini federal parlamentdə dilə gətirmə cəsarətini və gerçəyini hər kəsə göstərdi. Burada istər Azərbaycan, istərsə də Türkiyənin vətəndaşlarını bu millət vəkilinə dəstək olmağa çağırıram. Çünki bu millət vəkilinin açıqlamalarından sonra erməni diasporu, media üzərindən çox çirkin hücumlara başlayıblar".

**ATA-A İdarə Heyətinin üzvü olan Enes Cansevər isə musavat.com-a açıqlamasında adıçəkilən millət vəkilinin dediklərini təqdirlə qarşıladığını deyib, hər kəsi Azərbaycanın dostuna dəstək olmağa çağırdı: "Qarabağın dərdi tək Azərbaycanın deyil, bizim hər birimizindir" deyən Cansevər əlavə etdi ki, məsələnin gündəmdə olması olduqca zəruridir:** "ATA-A olaraq davamlı şəkildə parlamentdəki millət vəkillərinə və siyasətçilərə Qarabağ gerçəklərini çatdırmaqda davam edirik. Yaxın zamana qədər Avstraliyada erməni diasporu istədiyi şəkildə at oynadırdı. Artıq qarşısında bizləri görür. Vaxtilə onlar gündəm yaradırdı, biz onların ardınca insanları məlumatlandırmağa çalışırdıq. Amma artıq Türkiyə diasporu olaraq bizlər onların qarşısındayıq. Bunun da ən bariz nümunəsi, Avstraliya xarici işlər naziri Julia Bishopun keçən ilin iyul ayında sözdə soyqırıma qarşı verdiyi rəsmi açıqlamadır. Hörmətli nazir rəsmi açıqlamasını özəl bir məktubda ifadə edərək, erməni diasporunun istər Qarabağ məsələsi, istərsə də sözdə erməni soyqırımı məsələləri ilə əlaqədar bütün gözləntilərini boşa çıxararaq onları ifşa etdi. Ona görə də bütün azərbaycanlıların avstraliyalı deputatın çıxışı əks olunmuş linki izləməyə və hörmətli Luke Simpkinsə təşəkkür mesajları göndərmələrini gözləyirik. Luke Simpkinsə təşəkkür mailləri yağdırmalıyıq. Bu, çox önəmli bir məsələdir. Çünki bu millət vəkilinə dəstək versək, Qarabağın, Xocalı qətliamlarının gerçəklərini Avstraliya xalqına və parlamentinə çatdırmağa davam edəcək".

**Luke Simpkins:** "Avstraliya da işğal olunmuş Qarabağı heç vaxt bir dövlət olaraq tanımamalıdır"
**Enes Cansevər:** "Avstraliyalı millət vəkilinə təşəkkür məktubları yağdırmalıyıq"

Burada zəruri qeydlərimizi oxucularımızın nəzərinə çatdırırıq. Bu il oktyabrın sonlarında Luke Simpkinsin də daxil olduğu Avstraliya parlamentinin nümayəndə heyəti, Avstraliya-Azərbaycan dostluq qrupunun üzvləri Bakıya səfər etmişdi. Nümayəndə heyəti Azərbaycan jurnalistləri ilə də bir araya gəlmişdi. Görüşdə jurnalistlər Qarabağın on illərdir Ermənistanın işğalı altında qalması, həmçinin Kəlbəcər girovları ilə bağlı həqiqətləri deputatların diqqətinə çatdırmışdılar. "Yeni Müsavat"ın əməkdaşının görüşdə iştirak edən əməkdaşı isə işğal zonasının fərqləndirildiyi Azərbaycanın xəritəsini, həmçinin Kəlbəcər girovları Dilqəm Əsgərov və Şahbaz Quliyevin böyüdülmüş fotolarını da avstraliyalı deputatlara təqdim edərək, onları hazırda da işğal altındakı Şuşa şəhərində girov saxlanılan azərbaycanlıların azad olunması üçün Avstraliya dövlətinin də Ermənistana təsir göstərməsini xahiş etmişdi. Görüş iştirakçıları arasında olan əslən qarabağlı jurnalist həmkarlarımız da qonaqlara dəyərli bilgilər vermişdilər. Səfərin yekununda isə dostluq qrupunun üzvləri geri dönəndən sonra Avstraliya parlamentində məsələ qaldıracaqları barədə vəd vermişdilər...



**Deputat Luke Simpkinsin parlamentdəki çıxışını bu linkdən izləyə bilirsiniz:**

**https://www.facebook.com/ATAAlliance/videos/488874201286518/?theater&utm_source=ATA-A+Newsletter&utm_campaign=7333fc601f-Luke_Simpkins_MP_11_24_2015&utm_medium=email&utm_term=0_e976c248a6-7333fc601f-178819249**

**Azərbaycanın dostu olan millət vəkilinin maili isə budur: luke.simpkins.mp@aph.gov.au**

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015

**Noyabrın 24-də Türkiyənin hava sərhədlərini kobud şəkildə pozan Rusiyaya məxsus “Su-24" qırıcısının Türkiyə Hərbi Hava Qüvvələri tərəfindən vurulması Ankara-Moskva münasibətlərində görünməmiş gərginlik yaradıb. Rusiya prezidenti V.Putinin bunu ”arxadan zərbə" adlandırmasından sonra Türkiyəyə ünvanlı hədələr bir-birini əvəz edir.**
**Bu vəziyyətdə daha soyuqqanlı davranan və haqlı olduğunu faktlarla sübuta yetirməyə çalışan Ankara isə növbəti dəfə böyük jest edib.**



# Türkiyə və Rusiya arasında savaş təhlükəsi

## Ankara qərarında haqlı olduğunu desə də, məsələyə görə təəssüfünü ifadə etdi; Moskva isə rus qırıcısının vurulmasına cavab olaraq Türkiyəyə turları dayandırdı; Türkiyədən toyuq ətinin idxalına qadağa qoyuldu; Ankaranın Moskvadakı böyükelçiliyi hücuma məruz qaldı

Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu noyabrın 25-dəki Ankara səfərindən imtina edən rusiyalı həmkarı Sergey Lavrova zəng edərək baş vermiş hadisə ilə əlaqədar təəssüfünü ifadə edib, həlak olan pilota görə başsağlığı verib. “RİA Novosti”nin xəbərinə görə, bu barədə Lavrov açıqlama verib. Lavrovun sözlərinə görə, Çavuşoğlu bəyan edib ki, türk dispetçerlər vurulan “Su-24" tipli təyyarənin kimə məxsus olduğunu bilməyiblər. Qeyd edək ki, Türkiyə prezidenti R.T.Ərdoğan da bir gün öncə oxşar mövqedən çıxış etmişdi.

Türkiyənin baş naziri Əhməd Davudoğlu növbəti dəfə türk əsgərinin haqlı olduğunu bəyan edərək “öz hava sahəmizi qorumaq ən təbii haqqımızdır. Bu hadisədə Rusiya Federasiyası ilə münasibətləri gərginləşdirmək kimi bir məqsədimiz olmayıb. Rusiya bizim dostumuz və qonşumuzdur. Böyük dövlətlər arasında əlaqələr kommunikasiya qəzalarına qurban verilə bilməz” - deyə bildirib: “Sərhədimizi pozan Rusiyaya məxsus qırıcı təyyarənin vurulması əmrini şəxsən mən vermişəm. Rusiya hərbi təyyarəsi bütün xəbərdarlıqlara məhəl qoymadığı üçün vurulub”.

“Biz gərginliyin yaranmasını istəmirik. Biz yalnız öz təhlükəsizliyimizi müdafiə etmişik”. Bunu isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatı İqtisadi və Ticarət İşbirliyi Daimi Komissiyasının 31-ci toplantısında çıxışında deyib. O bildirib ki, dünya 7 il öncəki iqtisadi böhranı hələ də adlamayıb.

Kreml isə oturub vəziyyəti müzakirə etməkdənsə, aqressiv siyasət yürütməkdədir. Ölkənin müdafiə naziri Sergey Şoyqu deyib ki, Rusiya Suriyadakı “Hmemim” bazasına S-400 zenit-raket komplekslərini göndərəcək. Qeyd edək ki, S-400 Triumf zenti-raket kompleksi S-300-lərlə müqayisədə daha böyük uzaq məsafəni əhatə edir. S-400-lər ən müasir təyyarələri vurmaq qabiliyyətinə malikdir. Şoyqu deyib ki, Rusiya Suriyada vurulan Su-24 qırıcı təyyarəsinin sağ qalan pilotunu xilas edib. Nazir prezident Vladimir Putinə məruzəsində bildirib. O, "Su-24" qırıcısının sağ qalan pilotunun xilas edilməsi məqsədi ilə keçirilən əməliyyatın uğurla nəticələndiyini və xilas edilən pilotun hərbi bazaya çatdırıldığını qeyd edib. Putin "Su-24" qırıcı təyyarəsinin heyət üzvü polkovnik-leytenant Oleq Peşkova Rusiya Federasiyasının Qəhrəmanı adını verib. Rusiya prezidenti "Mi-8" helikopterinin kapitanı Konstantin Muraxtini və matrosu Aleksandr Pozıniçi “İgidliyə görə” ordeni ilə təltif edib.

Rusiyanın Liberal-Demokratik Partiyasının lideri Vladimir Jirinovski növbəti şəkildə Türkiyəni ittiham edib. O, hakimiyyətə “çıxış yolu” da göstərib. **“Türkiyə məsələsini başqa əllər vasitəsilə həll etmək lazımdır. Ermənilər türklərə nifrət edir, əgər biz onlara qərb ərazilərini azad etməyə icazə versək, onlar məmnuniyyətlə torpaqlarını azad edəcəklər”**-deyə, Jirinovski erməniləri Türkiyəyə qarşı səfərbər olmağa çağırıb. Üstəlik, “kürdlər bizim köməyimizi gözləyirlər”- deyərək, qardaş Türkiyəni təhdid edib.

Rusiya XİN başçısı S.Lavrov Ankara səfərini təxirə salandan sonra “mən Türkiyəyə getmirəm, siz də getməyin” deyə, rus vətəndaşlara müraciət edib. Rusiya baş nazirinin müavini Dmitriy Roqozin də Rusiya vətəndaşlarını Türkiyəyə getməməyə çağırıb. Roqozin iddia edib ki, terrorçuların olduğu bölgədə Ərdoğanın oğlunun neft kampaniyası var və əslində Türkiyə həmin əraziləri nəzarət altında saxlamaq istəyir. Bundan öncə Rusiya prezidenti Putin də Türkiyəni İŞİD-i müdafiədə ittiham etmişdi. Bununla da Rusiya on illərdir terrordan əziyyət çəkən Türkiyəni terroru himayədə suçamışdı. Hansı ki, NATO, Avropa Birliyi və digər təşkilatlar, o cümlədən ABŞ prezidenti Barak Obama hadisə ilə bağlı mövqelərində Türkiyənin hava sərhədlərini qorumaqda haqlı olduğunu bəyan etdilər. Türkiyə onun sərhədini pozan rus qırıcısına 5 dəqiqə ərzində 10 dəfə xəbərdarlıq edildiyini sübut edən səs yazısını da yayıb.

Hakimiyyətin aqressiyasından stimul alan Rusiyadakı başıpozuq dəstələr isə qardaş ölkənin səfirliyini daşa basıb, pəncərələri qırıblar.

Rusiyadan gələn hədələrin qarşılığında Türkiyə də öz növbəsində təhlükəsizlik tədbirlərini gücləndirir. Ankara Suriya sərhədinə əlavə 20 tank yeridib. Tanklar əvvəlcə Qaziantep şəhərinə, buradan isə polislərin müşayiəti ilə Suriya sərhədinə gətiriliblər. CNN-Türk televiziyası isə Ankaranın bütün quru və hava qoşunlarını ən yüksək döyüş hazırlığı səviyyəsinə gətirdiyi xəbərini yayıb. Belə bir situasiyada dünyada hətta 3-cü Dünya savaşının başlaya biləcəyi barədə müzakirələr aparılır. Hesab olunur ki, nüvə dövləti olan Rusiyanın NATO dövləti Türkiyəyə hansısa müdaxiləsi bəşəriyyət üçün böyük fəlakətlərə gətirib çıxaran müharibənin başlamasına gətirib çıxara bilər.

**Politoloq Arzu Nağıyev Suriya diktatorunun bu situasiyada dividentlər qazandığını güman edir. Onun fikrincə, Bəşər Əsəd müəyyən mənada öz istəyinə çatdı və Rusiya -NATO qarşıdurmasına nail oldu:** “Bu işdə Suriya rəhbərliyi türkmən faktorundan istifadə etdi. Belə ki, Əsədin verdiyi koordinatlar əsasında Rusiya təyyarələri və raketləri bu əraziləri vururdu. Məqsəd guya sərhəddən keçən silah qaçaqmalının qarşısını almaqdır. Əslində isə burada yaşayan türkmənlər İŞİD-ə qarşı mübarizə aparan və Əsədə müxalif olan qüvvələrdir. Əsəd də bu yolla onları məhv etməyə çalışır. Rusiya isə öz növbəsində Əsədi müdafiə edir və müxalifəti də vurur. Təbii ki, Türkiyə də türkmənləri müdafiə edir və bununla bağlı dəfələrlə beynəlxalq təşkilatları və Rusiyanı xəbərdar edib. Təyyarənin vurulması da bunun məntiqi nəticəsidir”.

**A.Nağıyevin fikrincə, Rusiyada artıq bu proseslərin siyasi məcraya yönələcəyi aydın şəkildə görünür:** “24 noyabrdan başlayaraq, Moskvada Türkiyə səfirliyi qarşısında mitinq təşkil edilir, turizm təşkilatları Türkiyə ilə əlaqələri kəsməyə hazırlaşır, hərbi sahədə əməkdaşlıqlar dayanır. Rusiyanın siyasi şərhçiləri və analitikləri Türkiyə prezidenti Ərdoğanı və onun ailəsini İŞİD-lə gizli biznes münasibətlərində günahlandırırlar. Buna görə də münasibətlər müsbət məcrada inkişaf etməyəcək və bu da təbii ki, hansı bir variantla qisas almaq məcrasına yönələ bilər. Qorxulu məqam odur ki, artıq İŞİD -lə və ümumiyyətlə, terror təşkilatları ilə mübarizə adı altında Rusiyanın hərbi qüvvələri istər havadan, istərsə də dəniz və okeanlarda yerləşən bazalarından istifadə edir və bu raketlərin trayektoriyasında mülki nəqliyyatlar, o cümlədən hava nəqliyyatı da ola bilər. Belə bir xəbərdarlıq artıq Rusiya hərbi qüvvələri tərəfindən edilib”.



### Azərbaycanlı ekspertlər durumu təhlil edir: “Suriya və Ermənistan sərhədlərində uçuşlar edən Türkiyə aviasiyası çox diqqətli olmalıdır”

**Ekspertin qənaətinə görə, Türkiyə və Rusiya yəqin ki, bu insidentin araşdırılmasından sonra öz nəzərdə tutduqları qaz ixracı ilə bağlı meqa layihələrin həyata keçirilməsi barədə danışıqlarını davam etdirə bilərlər:** “Lakin bu gün vəziyyət gərgin olaraq qalır və gərginliyin tezliklə düzələcəyi də inandırıcı görünmür”.

**A.Nağıyev Azərbaycanla bağlı perspektivlərdən də danışdı:** “Bu məsələdə Azərbaycanın heç bir məsuliyyət daşımaması məlumdur, lakin unutmaq olmaz ki, biz Türkiyə ilə strateji portnyor və tərəfdaşıq. Rusiya ilə təbii ki, bir çox sahələrdə o cümlədən silah alqı-satqısında müqavilələrimiz var. Təbii ki, neft- qaz ixracı ilə bağlı da Türkiyə ilə tərfdaş kimi çıxış edirik, birgə layihələrimiz mövcuddur”.

**Politoloq Şahin Cəfərli hesab edir ki, Türkiyə ilə Rusiya arasında müharibə təhlükəsi real deyil:** “Əvvəla, bu, eyni zamanda NATO-Rusiya müharibəsi anlamına gələr ki, Rusiyanın belə bir riskə getməsini gözləmirəm. Təsadüfi deyil ki, hadisədən sonra Rusiya rəhbərliyinin səsləndirdiyi qəzəbli bəyanatlarda olayın Rusiyanı NATO ilə qarşıdurmaya sövq edə biləcəyindən narahatlıq ifadə olunaraq Türkiyəyə bu istiqamətdə də qınaq ünvanlanıb. İki tərəf də - həm Türkiyə və NATO, həm də Rusiya müharibədə qətiyyən maraqlı deyil. İki ölkə arasındakı gərginlik hərbi müstəvidən çox, siyasi və iqtisadi müstəvilərdə davam edəcək”.

**Ekspert xatırlatdı ki, biz bu gərginliyi və atılan ilk real addımları müşahidə etməkdəyik:** “Rusiya turizm sahəsində Türkiyəni boykot etməyi qərara alıb. Türkiyədən quş ətinin idxalı dayandırılır. Meyvə-tərəvəz idxalının da dayandırılacağını gözləmək olar. Rusiyada fəaliyyət göstərən Türkiyə şirkətləri, xüsusən 100-ə yaxın inşaat firması üçün şərtlərin qəsdən çətinləşdirilməsini və onların Rusiya bazarından sıxışdırılıb çıxarılmasını da gözləmək olar. Bundan başqa, iki ölkə arasında həyata keçirilən ortaq layihələrin dondurulması, hətta ləğvi ehtimalı da var. Bu sırada ”Türk axını" layihəsini göstərmək olar ki, bu layihə ilə bağlı onsuz da kifayət qədər siyasi və iqtisadi xarakterli problemlər mövcud idi. Digər mühüm layihə isə Türkiyənin Mersin vilayəti ərazisində Rusiya tərəfindən inşa olunan Akkuyu AES layihəsidir. Türkiyə təbii ki, turizm boykotu, şirkətlərinin Rusiya bazarından çıxarılması, Rusiyaya ixracatının dayandırılması nəticəsində maddi itkilərə məruz qalacaq. Lakin Ankara da öz növbəsində istər indi, istərsə də perspektivdə atacağı addımlarla Rusiyaya zərər yetirə bilər. “Türk axını” və Akkuyu AES layihələri dayandırılarsa, bundan Rusiya daha çox zərər çəkəcək, nəinki Türkiyə. Türkiyə eyni zamanda yaxın gələcəkdə Rusiyadan enerji asılılığını azaltmaq üçün yeni strategiya müəyyənləşdirə bilər. Hazırda Türkiyə özünün təbii qaz ehtiyacının 55 faizini Rusiya qazının hesabına ödəyir. Bu ticarətdən Rusiyanın qazancı ildə 9 milyard dollar təşkil edir ki, bu ölkə iqtisadiyyatının indiki böhran durumu nəzərə alındıqda, bu məbləğin önəmi açıq görünür". **Ş.Cəfərli bir məsələni də xüsusi vurğuladı:** “Rusiya ilə Türkiyə arasında iri miqyaslı müharibə təhlükəsinin olmamasına baxmayaraq, Rusiyanın hansısa şəkildə qisas aksiyası həyata keçirməsi mümkündür. Moskvanın özünün Suriyadakı hərbi bazasına S-400 zenit-raket kompleksi göndərmək qərarı xoş niyyətdən xəbər vermir. Suriya sərhədi boyunca, eləcə də Ermənistan sərhədləri yaxınlığında uçuşlar həyata keçirən Türkiyə hərbi aviasiyası çox diqqətli olmalıdır. Suriya və Ermənistan hava məkanının Türkiyə təyyarələri tərəfindən azacıq pozulması halında belə, Rusiya həmin təyyarələri vurmaqda tərəddüd etməyəcək. Türkiyə Rusiyanın əlinə belə əsas verməməlidir. Zamanla gərginliyin səngiməyə başlayacağını düşünürəm”.

**Deputat Fazil Mustafa “Yeni Müsavat”a bildirdi ki, əslində Türkiyə ilə Rusiya arasında Suriya üzərindən açıq savaş çoxdan başlayıb:** “Ancaq bunun qlobal savaşa dönə biləcəyinə ehtimal vermirəm. Çünki Rusiyanın bütün dünya ilə, xüsusilə də Türkiyənin də üzvü olduğu NATO ilə savaş siyasətini davam etdirmək imkanları güclü deyil. Bununla belə, Suriyada İran-Rusiya koalisiyası ilə Türkiyə arasında mübarizə daha da sərtləşəcək”. **F.Mustafa Türkiyənin yanlış yolda olduğunu iddia edən və türkləri üzr istəməyə çağırış edən bəzi ziyalılara da etiraz etdi:** “Rusiyadan üzr istəmək məsələsinə gəldikdə isə, bizim bunu Türkiyə dövlətinə tövsiyə etməyimiz belə mənəvi cəhətdən yanlışdır. Türkiyə öz dövlət maraqlarını bizdən də yaxşı bilir və atdığı addımın bədəlinə hazır olduğu üçün bu sərt və haqlı qərarı qəbul edib. Çünki son vaxtlar Rusiya Türkiyə ilə həddən artıq aşağılayıcı üslubda davranırdı və bir neçə dəfə sərhədini pozmuşdu. Mən də patriotik hay-küyçülüyün əleyhinəyəm, ancaq burada dövlətin öz təhlükəsizliyini qorumasından söhbət gedirsə, savaş bahasına da olsa, bunu qorumaq lazımdır. Rusiyadan üzr istəməyi doğru sayanlar məncə özləri Şahdağa ekspedisiya təşkil edib oradakı zirvələrin birində üzlərini Rusiya istiqamətinə tutaraq doyunca üzr istəyə bilərlər”.

❑ **Elşad PAŞASOY**

# "Sənin qızıldan qiymətli başın üçün..."

## Kimlər kimlərin öldürülməsi üçün milyonlarından keçib?

**"Filankəsin başına pul qoyuldu..." Xarici mətbuatda bu sayaq məlumatlara tez-tez rast gəlmək mümkündür. Hansısa bir terrorçunun, qatilin, ya da eks dövlət başçısının. Bəzən milyonlar havada uçuşur, bəzənsə sadəcə bir neçə min dollar. "Yeni Müsavat" bu faktları toplayıb və ortaya maraqlı nəticə çıxıb.**


Bəşər Əsəd


Zaur Dadayev


David Hainesi

### Bəşər Əsədin başına 450 min dollar?

2012-ci ildə Suriya prezidenti Bəşər Əsədin öldürülməsi üçün ərəb şeyxi tərəfindən göstəriş verilib. Səudiyyə Ərəbistanının öndə gedən dini liderlərindən olan Əli əl-Rəbii Suriyada günahsız insanlara qarşı törədilən amansız qətllərdən qəzəblənərək Bəşəd Əsədi öldürənə 450 min dollar və xeyli sayda qiymətli hədiyyələr verəcəyini bildirib.

2015-ci ilin oktyabrında Suriyada Əsəd qüvvələrinə qarşı vuruşan "əl-Nüsra" cəbhəsinin lideri Əbu Məhəmməd əl-Culani Dəməşq rejiminin tərəfində vuruşan "Hizbullah"ın rəhbəri Həsən Nəsrullah və Suriya prezidentini öldürənə mükafat veriləcəyini açıqlayıb. Əsədin başına 3 milyon, Nəsrullahı öldürənə isə 2 milyon avro veriləcək. Culani onları öldürən şəxsin təhlükəsizliyinin "əl-Nüsra" tərəfindən təmin ediləcəyini söyləyib. "Əl-Nüsra" bugünlərdə hər rus əsgərinin başına 1 milyon Suriya lirəsi məbləğində mükafat da təyin edib.

2015-ci ilin avqustunda Rusiya baş nazirinin keçmiş müavini Boris Nemtsovun ölümündə şübhəli bilinən Çeçenistanın Daxili İşlər Nazirliyinin keçmiş batalyon döyüşçüsü Zaur Dadayev cinayəti törətmək üçün sifarişçidən 500 min rubl (7 700 ABŞ dolları - red.) avans alıb. Bu haqda Dadayev dindirilmə zamanı bildirib. Dadayev istintaqda adı hallanan Rusikin ona sifarişin icra olunması təqdirində 15 milyon rubl vəd etdiyini deyib. Rusiya İstintaq Komitəsində Dadayev həbs olunarkən onun üzərində tapılan 100 min rublun da həmin hadisəyə görə alındığını düşünürlər.

### Əsgəri tutana 200 min dollar vədi...

2014-cü ildə Ukrayna hərbçilərinin cəsədlərini təhqir edənin tutulması üçün mükafat elan edilib. Ukraynalı biznesmen rus əsgəri Dmitri Qrisuku tutana 200 min dollar ödəməyə söz verib.

Naməlum qalmağı arzulayan ukraynalı biznesmen "mənim şirkətim orduya, milisə, Milli Qvardiyaya və Antiterror Qrupuna ciddi dəstəyini göstərir. Amma mən öz şəxsi vəsaitimdən daha bir mükafat təyin etmək istəyirəm. Silahlı qüvvələrin, hüquq-mühafizə orqanlarının və ya Ukrayna xüsusi xidmət orqanlarının bölməsindən Rusiya əclafı Dmitri Qrisuku sağ və ya ölü ələ keçirən 200 min dollar mükafat alacaq və bankda müstəqil hesaba keçiriləcək" deyə, bildirib.

Biznesmenin belə mükafatı elan etməsinə Sankt-Peterburqdan olan rusiyalı Dmitri Qrisukun öldürülən Ukrayna hərbçiləri ilə fotosunu və videosunu gördükdən sonra şoka düşməsi səbəb olub. Xatırladaq ki, videoyazıda o, öldürülmüş ukraynalıların parçalanmış cəsədlərinin yanında gəzişir və nə gördüyünü şərh edir.

### Terroristlərə milyonlar...

2014-cü ildə ABŞ şotlandiyalı David Hainesin başını kəsən şəxsin başına pul mükafatı qoyub. İngilis əsilli "Cihadçı Con" ləqəbli İŞİD *(özünü İraq və Şam İslam Dövləti kimi təqdim edən terror təşkilatı)* üzvünün saxlanmasına yardım edəcək şəxslərə 9,75 milyon dollar mükafat veriləcək. Conun tutulması üçün amerikalı və ingilis milli kəşfiyyatçıları bölgədə və İngiltərədə ciddi araşdırma aparırlar. ABŞ prezidenti Barak Obama isə İŞİD-in Suriyadakı qalası kimi bilinən Rakkada saxlandığı iddia olunan Conun öldürülməsi ilə bağlı təlimat verib. Conun milli kəşfiyyat nümayəndələrinin kimliyini təsbit etdiyi deyilir. Onun terror təşkilatına qoşulmazdan əvvəl paytaxt Londonda yaşadığı məlum olub. Conun ailə üzvlərinin sorğuya cəlb olunduğu deyilir. Ən son məlumatlara görə isə avizərbələr nəticəsində qatil Con öldürülüb.

2014-cü ildə Ukraynanın Kremençuq şəhərinin meri, Gəncə şəhərində doğulmuş Oleq Babayevin qatillərinin adını söyləyənə də mükafat vəd edilib. Merin dostları O.Babayevi qətlə yetirən haqqında məlumat verənə 100 min qriven mükafat vəd edib. Merin dostları pul yığılması üçün xüsusi fond yaradıblar. "Fonda artıq 100 min qriven *(8,5 min dollar)* yığılıb. Tanışları zəng edir, yeni vəsaitlər hazırlayırlar ki, cinayətkarlar tapılsın", - deyə, Ukrayna Radasının deputatı Yuri Şapoval bildirib.

Milisdən bildirirlər ki, Oleq Babayevin qətli sifarişli olub. Hüquq-mühafizə orqanları bir neçə versiya üzərində işləyirlər. Qətl siyasi, biznes və ya məişət xarakterli ola bilər.

Xatırladaq ki, Oleq Babayev evinin yaxınlığında öldürülüb. Ona 3 dəfə atəş açılıb. Atəş açan naməlum şəxs və ya şəxslər avtomobillə hadisə yerindən uzaqlaşıblar.

2015-ci ilin may ayında ABŞ hökuməti İŞİD terror qruplaşmasının 4 lideri haqda informasiyaya görə üst-üstə 20 milyon dollar mükafat ayırıb. Ən böyük məbləğ - 7 milyon dollar təşkilatın liderlərindən olan Mustafa əl-Kaduli ilə bağlı informasiya üçün vəd edilib.

Bundan əlavə, Amerika hökuməti Əbu əl-Adnani və Gürcüstan əsilli Tarxan Batiraşvili üçün hərəsinə 5 milyon ayırıb. Tarik əl-Xarzinin başına isə 5 milyon dollar qoyulub.

ABŞ İŞİD-i ölkəyə əsas təhlükələrdən biri hesab edir. Qruplaşma daha bir neçə ölkədə, o cümlədən Rusiyada terrorçu təşkilat kimi tanınıb. 2015-ci ilin yanvarında "İslam dövləti" komandirlərinin başına 1 milyon Suriya lirəsi qoyulub. Bu barədə "İslam ordusu" komandiri Zəhran Alluş çıxış edib. Siyahıda terror qruplaşması rəhbərlərinin 17 komandirinin adı keçir. Alluşun ölüm siyahısında məşhur İŞİD komandirləri - Əbu Ənəs İraqi, yardımçısı Əbubəkir Öməri, Əbu Musab Küveyti və Əbubəkir Misraba var.

Vəhhabi mediası isə bu açıqlamaya "Alluşun bu qədər maliyyə resursları varsa, onun nəzarət etdiyi Quta Şərqiyyə bölgəsi niyə acından ölür" sualı ilə cavab verib.

2014-cü ilin yanvarından Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviçin harada olduğu bəlli deyil. Ölkənin müxalif fəalları onun tapılıb qanun qarşısında mühakimə olunması üçün kampaniyaya başlayıblar. Fəallar facebookda Yanukoviçi tapıb gətirəni mükafatlandırmaq üçün vəsait toplanmasına çağırış ediblər. Çağırış yayılandan bir neçə saat sonra artıq 50 min dollardan çox vəsaitin toplandığı elan edilib.

Çağırışa şərh yazanlardan bəziləri isə Yanukoviçi tutub təhvil verməyə həvəsli olduqlarını və bunun üçün mükafata ehtiyac duymadıqlarını bildiriblər.

Başına pul qoyulanlardan biri də Rusiya prezidenti Vladimir Putin olub. Bu ilin fevral ayında onun başına pul qoyulub. Vilayət rəhbərinin müavini Boris Filatov yeni bəyanatla çıxış edərək, Rusiya prezidenti Vladimir Putinin fiziki məhvinə görə 100 milyon dollar vəsait ödəməyə hazır olduqlarını bildirib. Filatov alternativ variant da təklif edərək, Rusiya dövlət başçısının fiziki məhvi alınmayacağı təqdirdə onun hakimiyyətdən getməsinə cəhd edənlərə də analoji civarda qonorar ödəməyə hazır olduğunu dilə gətirib. Qubernator müavini Filatov isə fikrini belə əsaslandırıb ki, iki qardaş xalqın üz-üzə gəlməsinin, günahsız əsgər və zabitlərin gərginlik altında qalmasının təkcə bir günahkarı var - o da Vladimir Putindir. Yeni təklifin şərtləri və tezisləri mayın 5-nə qədər bəyan ediləcək.

### Terrorçular komandir müavininin başına pul qoyanda...

2014-cü ildə "Şaxtyorsk" batalyonunun komandir müavini Ruslan Onişenkonun başına terrorçular 100 min dollar pul qoyublar. Bu barədə DİN rəhbərinin müşaviri Anton Geraşenko sosial şəbəkədəki profilində yazıb. Onun sözlərinə görə, Onişenko soyadı terrorçulara yaxşı məlumdur, çünki o, doğma Şaxtyorsk uğrunda savaşlarda separatçılara qarşı diversiya əməliyyatlarını ələ idarə edir:

**"Onişenkonun 90-cı illərdə qanunlarla bağlı xeyli problemi olub, amma hazırda o, Şaxtyorskin azad olunmasında heç nə əsirgəmir"**. Geraşenko onu da bildirib ki, Donetçində 2 yük maşını, "Rapira" topu və silahları Onişenkonun rəhbərlik etdiyi qrup ələ keçirib.

### Nazir rejissorun başına 100 min dollar pul qoyub

Müsəlman dünyasının qəzəbinə səbəb olan "Müsəlmanların məsumiyyəti" filminin yaradıcısının başına 100 min dollar pul qoyulub. Pakistanın dəmir yolu naziri Hacı Qulam Əhməd Bilur filim yaradıcısını öldürənə 100 min dollar pul verəcəyini vəd edib. Nazir həmçinin bəyan edib ki, müsəlmanları təhqir etdiyi üçün sözügedən filmin rejissoru öldürülməlidir. Hacı Qulam Əhməd Bilur "Taliban" və "əl Qaidə" terror qruplaşmalarına da amerikalı rejissorun öldürülməsi ilə bağlı müraciət edib.

2014-cü ildə isə Ukraynada "Layfnyus" əməkdaşlarının başına pul qoyulmuşdu. Bu barədə "Layfnyus" telekanalının baş redaktoru Anatoli Suleymanov məlumat yayıb. Onun sözlərinə görə, telekanalın bir neçə əməkdaşının başına 20 min dollar mükafat qoyulub.

2012-ci ildə ABŞ-da Filadelfiyada bir qrup bank soymaq üçün özlərini niqab və ya çadra geyən müsəlman qadınlara bənzədib qarətlər törədiblər. İndi müsəlman icmaları "niqablı" qarətçiləri tapanlara 20 min dollar mükafat təyin ediblər. Filadelfiyanın müsəlmanlar yaşayan bölgəsində baş verən silsilə basqınlar yerli İslam icmalarını narahat edir. Çünki bank qarətçiləri ənənəvi olaraq maskada deyil, çadraya bürünərək oğurluq edirlər. Artıq burada yaşayan müsəlmanlar niqab altında gizlənib bank yaran kəsin tapılması ucun 20 min dollar mükafat təyin ediblər.

Məmurlar bildirirlər ki, qarətçilər müsəlman qadınlara xas uzun paltarda və üzlərinə niqab taxan kişilər tərəfindən törədilib. Hətta basqınlardan birində ölüm hadisəsi də baş verib.

### Öldürənə 130 min dollar, yerini deyənə 13 min dollar

Bu ilin mayında Misirin Sina yarımadasındakı tayfalar İŞİD-ə biət etdiyini açıqlayan "Sina vilayəti" adlı təşkilatın liderlərindən olan Şadi əl-Muininin başına mükafat qoyub. Ərəb mediası xəbər verir ki, Ailələr və Tayfa Gəncləri Birliyi onu öldürənə 130 min dollar, yerini söyləyənə isə 13 min dollar mükafat veriləcəyini açıqlayıb.

Birlikdən verilən məlumata görə, Muininin Qəzzaya qaçdığına dair dəqiq məlumatlar var. Terabin tayfasının liderlərindən olan Musa ed-Delh isə Sina yarımadasında İŞİD-lə silahlı qarşıdurmaya getməyəcəyini söyləyib.

Qeyd edək ki, Misir ərazisində fəaliyyət göstərən və orduya hücumları ilə tanınan "Ənsar Beyt əl-Makdis" qruplaşması İŞİD-ə biət etdiyini açıqlayandan sonra "Sina vilayəti" adlandırılıb.

### Hüsnü Mübarəkin başı 1 milyon dollaradır?

2009-cu ildə İranda Misir prezidenti Hüsnü Mübarəkin başına pul qoyulmuşdu. İran İnqilab Keşikçiləri Korpusu nəzdində fəaliyyət göstərən "Bəsic" təşkilatının tələbələrdən ibarət qanadı bəyan edib ki, Mübarəki qətlə yetirə biləcək şəxsə 1 milyon dollar mükafat veriləcək. Təşkilat bu addımını Misirin sərhədyanı Rəfah keçid məntəqəsini fələstinlilərin üzünə bağlaması ilə əsaslandırıb. "Bəsic" Misirin dövlət başçısını "terrorçu" adlandırmaqdan da çəkinməyib. "Beynəlxalq terrorçu olan Hüsnü Mübarəki dünyanın istənilən nöqtəsində qətlə yetirə biləcək şəxsə 1 milyon dollar mükafat veriləcək", - deyə təşkilatın bəyanatında bildirilir.

2007-ci ildə Hindistanın Cammu-Kəşmir əyalətində 3 uşağı yeyən bəbirin başına pul qoyulub. Səlahiyyətli şəxslər ötən həftə 8-10 yaş arası 3 uşağı parçalayan vəhşi heyvanı tapmaq üçün zəruri informasiya verəcək şəxsə 10 min rupi pul mükafatı vəd ediblər. Qanunvericilikdə bəbiri ovlayan şəxslər üçün 6 ilə qədər həbs cəzası nəzərdə tutulsa da, adamyeyən bəbirin öldürülməsi üçün xüsusi icazə alınıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Prezidentdən görüş öncəsi önəmli açıqlamalar

## Azərbaycan prezidenti Parisə Qarabağ məsələsində prinsipial və sərt mövqe ilə gedir; **rusiyalı politoloq:** "Moskva çətin ki, məsələdə Azərbaycanı açıq şəkildə qıcıqlandıran addımlar atsın..."

**Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sərkisyanın növbəti görüşünün gələn ay, dekabrın 1-də, Fransanın paytaxtı Parisdə reallaşacağı yönündə informasiyalar ciddiləşib. Bildirilir ki, prezidentlər həmin tarixdə BMT-nin iqlim dəyişikliyinə həsr olunan konfransı çərçivəsində bir araya gələ bilərlər.**





### **Zahid Oruc:** "Ədalətsiz sülh müqaviləsi növbəti Qarabağ müharibəsi deməkdir"

O da qeyd edilir ki, görüşdə hər hansı yeni təklif yox, atəşkəs rejiminə təhlükələr diqqət mərkəzində olacaq. Paris toplantısına ATƏT-in Minsk Qrupunun digər iki ölkəsinin - ABŞ və Rusiyanın prezidentləri - Barak Obama və Vladimir Putinin də qatılacağı gözlənilir.

Bu arada Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik 1 in.am erməni saytına müsahibəsində iki ölkə başçısının qarşıdakı görüşü ilə bağlı sualları cavablandırıb. Musavat.com-un məlumatına görə, səfir ümid etdiyini bildirib ki, **"Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü sülh nizamlanması prosesində dönüş olmaqla, yaxın bir ildə ölkə başçıları arasında dialoqa yeni stimul verəcək".**

Səfir həmçinin ümid etdiyini bildirib ki, dekabr ayı ərzində reallaşacaq görüşdə prezidentlər gərginliyin zəifləndilməsi və təmas xəttində qurbanların qarşısının alınması, həmçinin "nizamlanmaya aid elementləri" müzakirə edəcəklər. Onun sözlərinə görə, **"Dağlıq Qarabağ münaqişəsi zonasında ən böyük manea Azərbaycan və Ermənistan rəhbərliklərində siyasi iradənin olmamasıdır".**

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Siyasi komitəsində məruzəçi Robert Uolterin hesabatı əsasında Dağlıq Qarabağa dair az öncə qəbul edilən məlum qərara münasibət bildirən diplomat münaqişə tərəflərinin Minsk Qrupu formatını dəstəklədiyini yada salıb və əlavə edib: **"Lakin biz başqa beynəlxalq qurumlara Qarabağa dair mövqe bildirməyi yasaqlaya bilmərik".**

Yeni faktiki surətdə məsələyə yanaşmada sərgilədiyi əvvəlki ermənipərəst mövqeyindən geri çəkilib ki, bu da Azərbaycanın xeyrinə müsbət gəlişmə hesab oluna bilər. Xatırladaq ki, Uorlik digər beynəlxalq strukturlara Dağlıq Qarabağ məsələsi ilə bağlı mövqe bildirərkən "Minsk Qrupu həmsədrləri ilə məsləhətləşməyi" tövsiyə eləmişdi ki, bu da problemin uğursuz bir qurum tərəfindən inhisara alınmasına cəhd təəssüratı yaratmışdı.

Halbuki Azərbaycan tərəfi Minsk Qrupunun səmərəsiz fəaliyyət göstərdiyini dəfələrlə və açıq şəkildə bəyan edib. Başqa sözlə, rəsmi Bakının Qarabağ probleminin həlində heç bir irəliləyişə nail ola bilməyən belə bir formata sonsuzadək sadiq qalacağı illüziyadan savayı bir şey deyil. Prezidentlərin nəticə verməyən saysız-hesabsız təmasları bu ehtimalı artırır ki, azaltmır.

***

Xatırladaq ki, İlham Əliyev və Serj Sərkisyan arasında birbaşa görüş sonuncu dəfə ötən il oktyabrın 27-də, yenə Parisdə olub. Budəfəki fasilə (bir ildən artıq) rekord göstərici hesab edilir və eyni zamanda münaqişə zonasında situasiyanın ağırlaşdığının əlaməti, Minsk Qrupu həmsədrlərinin dişsiz fəaliyyətinin göstəricisi sayılır.

Böyük fasilənin əsas səbəblərindən biri də Azərbaycan tərəfinin nəticəsiz, görüş xətrinə görüşlərə maraq göstərməməsi ilə bağlıdır. Bu mövqeyi ölkə başçısı son olaraq parlamentin yeni tərkibinin ilk toplantısında elədiyi çıxışında növbəti dəfə nümayiş etdirib.

**Prezident deyib:** "Ermənistan münaqişənin dinc yolla nizamlanmasında maraqlı deyil. Beynəlxalq hüquq və tarixi ədalət Azərbaycanın tərəfindədir, münaqişənin həlli ilə bağlı BMT və digər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul edib. Ermənistan torpaqlarımızda yaradılmış süni dövlətdir. Bunu bütün dünya bilməlidir. Xalqımız imkan verməz ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın".

**Ölkə başçısı həmçinin Minsk Qrupunun fəaliyyətinin hələlik səmərə vermədiyinə diqqət çəkib:** "Bununla belə, diplomatik və siyasi səylər davam etdiriləcək. Konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi vacibdir".

***

Belə bir mövqenin məhz Paris təması ərəfəsi səslənməsi xüsusi önəm daşıyır və rəsmi Bakının birbaşa görüşlərə hansı prizmadan baxdığını, Parisə nə ilə getdiyini ortaya qoyur.

"Azərbaycan Ermənistan rəhbərliyi ilə görüşlərə kəskin və ciddi real mövqelərlə gedir". Bu barədə prezidenti İlham Əliyevin V çağırış Milli Məclisin ilk iclasındakı nitqini şərh edərkən deputat Zahid bildirib (axar.az). Deputat ölkə başçısının Qarabağ məsələsi üzərində xüsusi dayandığını qeyd edib: "Siyasi diplomatik səylər və hərbi vasitələrin daha da gücləndirilməsi ön plandadır. Çünki hazırkı şəraitdə regional proseslər elə cərəyan edir ki, sadəcə, sülh danışıqları və siyasi nizamlama vasitələri ilə prosesin uğurlu nəticəsinə ümid etmək mümkün deyil. Başqa tərəfdən isə danışıqlara xeyli müddətdir fasilə verilib. Çünki Azərbaycan Minsk Qrupu həmsədrləri tərəfindən irəliyə sürülmüş sənədlərin Qarabağ probleminin real həll üsulu olmadığını görür. Eyni zamanda həmsədrlər arasında ciddi qarşıdurma yaşanır və konfrontasiya mövcuddur. Hətta vaxtilə Fransa və ABŞ Rusiyaya qarşı idisə, indi əksinədir. Fransa və Rusiya arasında son terror olaylarından sonra yaxınlaşma var. Deməli, bunun Qarabağ proseslərinə də təsiri olacaq".

**Deputat prezidentin son çıxışını Dağlıq Qarabağla bağlı bundan sonra atılacaq addımların mühüm təlimatı kimi qiymətləndirib:** "Dövlət başçısı formatın dəyişdirilməsinin asan olmadığını, lakin regional və beynəlxalq şəraiti dəyişdirmək üçün mühüm addımların atıldığını qeyd etdi. Bu addımlardan biri Ermənistana qarşı daha kəskin hərbi zərbələr endirməkdir. Çünki Ermənistan tərəfi yalnız bu yolla danışıqlarda müəyyən mənada maraqlı olur. İkincisi, təkcə Minsk Qrupu formatında qalmamaq, ATƏT-in digər təsisatlarında, AŞPA, AB-də Ermənistan əleyhinə siyasi qərarların qəbulu Azərbaycan diplomatiyasının əsas xəttini təşkil edir. Bu zaman təbii ki, qarşı tərəf müxtəlif kompleks tədbirlər həyata keçirməyə çalışır. Bu baş verməkdə isə Bakıya gələn diplomatların sayı artır. Azərbaycan səngərdəki gərgin durumu həzm etməyib, ermənilərə qarşı ciddi addımlar atan kimi sanki bunun başqa bir səngərdə hərəkətlənməsi isə siyasi diplomatik cinahda baş verir. Prezident İlham Əliyev Ermənistan rəhbərliyi ilə görüşlərə kəskin və ciddi real mövqelərlə gedir. Heç bir halda rayonlarla bağlı məsələdə güzəştə gedilməyəcək. Ədalətsiz sülh müqaviləsi növbəti Qarabağ müharibəsi deməkdir. Çünki Azərbaycanın ziyanına hansısa bir prosesi beynəlxalq güclərin əli ilə reallaşdırmaq da hələ son nəticə deyil. Bu o deməkdir ki, daha ağır nəticələr ola bilər".

***

Prezidentlərin növbəti görüşü həm də region və onun ətrafında vəziyyətin daha da gərginləşdiyi dönəmə təsadüf edir ki, bu da sözsüz ki, Dağlıq Qarabağa dair istənilən sülh təşəbbüsünün nəticəsinə təsir göstərmək gücündədir. Söhbət ilk növbədə Suriyada Rusiyanın apardığı hərbi əməliyyatlar və bu kontekstdə son günlər Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsindən gedir.

Bəzi iddialara görə, bu fonda şimal qonşumuz üçün Güney Qafqazın, konkret olaraq, Qarabağ münaqişəsi zonasının hərbi önəmi artıb. Hətta Moskvanın bu zonada terrorla mübarizə adı altında hərbi vertolyotlar yerləşdirə biləcəyi barədə ehtimallar səslənib. Lakin fərqli düşünən analitiklər də var.

"Çətin ki, Rusiya vertolyot hissələri Dağlıq Qarabağın ərazisində yerləşdirilsin. Bununla Rusiya yeni Azərbaycan-erməni konfliktinə cəlb olunma riskinə getmiş olardı". Bu barədə rusiyalı politoloq, beynəlxalq siyasət üzrə ekspert Mixail Neyjmakov rusdilli vesti.az-a açıqlamasında deyib. Onun sözlərinə görə, Rusiyaya vasitəçi olmaq daha sərfəlidir, nəinki münaqişədə açıq şəkildə tərəf olmaq.

"Rusiyanın Suriyada hərbi əməliyyatı Kremlin məhz Bakı ilə konfliktə girməməsi üçün əlavə motiv verir. Xəzər dənizindən Rusiya raketlərinin atılması Moskvanın az qala ən effektli güc nümayişi olub" - vurğulayıb ekspert.

**O, bu xüsusda Rusiyanın Xəzər akvatoriyasından hücumları davam etdirmək əzmində olmasına da diqqət yönəldərək əlavə edib:** "Ancaq bundan ötrü Rusiyaya xəzəryanı dövlətlərlə münaqişələr lazım deyil. Moskva çətin ki, indi Azərbaycanı açıq şəkildə qıcıqlandıran addımlar atsın. Suriyada əməliyyatların davam eləməsi buna əlavə zəmanətdir".

Lakin bütün hallarda o da faktdır ki, Rusiya üçün hələ ki Qarabağ münaqişəsinin dondurulmuş şəkildə qalması daha məqbuldur. Prezidentlərin növbəti görüşünün nəticəsinə ciddi təsir edən amillərdən biri və hətta birincisi də elə budur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015

# Uzun fasilədən sonra uşaq filmi çəkildi

**Mədəniyyət və Turizm Nazirliyi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə həyata keçirdiyi "Bizim kino günləri - Audiovizual məkanda peşəkarlıq" layihəsi davam edir.**



Noyabrın 25-də Nizami Kino Mərkəzində layihə çərçivəsində növbəti tədbir keçirilib. Tədbir Azərbaycan kinosunun təbliği, müasir kino mənzərəsində yeri və dəyəri, dünya kino sənayesinə inteqrasiyası, yeni kinomuzda peşəkarlıq məsələlərinə həsr edilən layihənin ikinci mərhələsidir.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin Kinematoqrafiya şöbəsinin sektor müdiri Yusif Şeyxov çıxış edib. O, layihənin uğurla davam etdiyini vurğulayaraq bədii kinoda uşaq mövzusu, uşaq film auditoriyasının ünvanlı seçimi, cizgi filmlərinin istehsalının durumu barədə söz açıb: "Hazırda kinoteatrlarımızda daha çox xarici filmlər nümayiş olunur. Bu cür filmlər uşaqların özünüdərk prosesinə xüsusi təsir edir. Zəngin uşaq ədəbiyyatını və kino dilinə çevirmək çətin prosesdir. Yeni texnologiyalardan istifadə etməklə bu ədəbiyyat nümunələrini müasir dilə çevirməyi bacarmaq lazımdır. Uşaq filmlərinin istehsalat baxımından çətinlikləri var".

Yusif Şeyxov "Azərbaycanfilm" kinostudiyası tərəfindən uşaq filmi ilə bağlı müsabiqə olacağını bildirib.

**Daha sonra cizgi filmlərindən söhbət açan Yusif Şeyxov bu sahədə vəziyyətin qənaətbəxş olduğunu deyib:** ""Azanfilm" studiyası tərəfindən əlifbaya, saya, rənglərə aid maarifləndirici filmlər çəkilib. Bu sıradan olan cizgi filmlərinin istehsalı davam edəcək. Həmçinin müstəqil studiyalarda da animasiya filmləri çəkilir. Cizgi filmlərinin istehsalı üçün bu sahəyə yaxşı bələd olan mütəxəssislərin yetişdirilməsi vacibdir. Bunun üçün kurslar təşkil olunacaq".

Çıxışdan sonra Rafiq Əliyev və Cavid Təvəkkülün rejissoru olduğu "Dərs" filmi tədbir iştirakçılarına təqdim edilib.

Qeyd edək ki, film məktəb həyatından, yeniyetmə məktəbli uşaqların qarşılıqlı münasibətlərindən, dostluğa və həyata baxışlarından, bu baxışların formalaşmasından bəhs edir. Adıçəkilən ekran əsəri Azərbaycanda uzun fasilədən sonra çəkilən uşaq filmidir. Filmin bəstəkarı Tünzalə Ağayevadır.

Nümayişdən sonra filmin yaradıcı heyəti və media nümayəndələri arasında müzakirə aparılıb, film barədə müxtəlif fikirlər səsləndirilib, jurnalistlərin sualları cavablandırılıb.

Xatırladaq ki, layihə çərçivəsində "Azərbaycanfilm" kinostudiyasında son iki ildə çəkilən filmlər Nizami Kino Mərkəzi, "Park Cinema" və "28 Cinema" kinoteatrlarında nümayiş etdirilir.

Yaxın vaxtlarda daha iki görüş - "Nabat" və "Yarımçıq xatirələr" filmlərinə baxış və müvafiq mövzular ətrafında fikir mübadiləsi nəzərdə tutulur.

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


## Silsilə oğurluqlar edən şəxs saxlanıldı



**Bakıda evlərdən silsilə qarət hadisələri törədən şəxs tutulub. Bakı Şəhər Baş Polis İdarəsindən «Trend»ə daxil olan məlumata görə, tutulan şəxs noyabrın 14-də M.Fətəli küçəsində Nəsibə Məlikovanın evindən açıq qapıdan keçməklə 240 manat, Vidadi küçəsində Edilya Zöhrabovanın, Müjgan Atakişiyevanın, noyabrın 18-də isə H.Aslanov küçəsində Elşən Seyfullayevin evindən mobil telefonlarını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunan 1977-ci il təvəllüdlü Əfrasiyab Əlimovdur.**

Onu Yasamal Rayon Polis İdarəsi 26-cı polis bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində saxlamaq mümkün olub. Polisin apardığı araşdırmalar zamanı şübhəli şəxsin üzərindən 0,340 qram heroin aşkar olunaraq götürülüb. Keçirilən ilkin əməliyyat-istintaq tədbirləri ilə müəyyən edilib ki, o, noyabrın 24-nə keçən gecə, Azərbaycan prospektində Rasim Qayınbəyova məxsus "Kia-Optima" markalı avtomobildən, şüşəsi sındırılmaqla içərisində bank kartları olan pul kisəsini, S.Tağızadə küçəsində Südabə Sədiyevanın mənzilindən içərisində 50 manat, qızıl-zinət əşyaları, bank kartları və sənədlər olan əl çantasını gizli yolla talayıb.

## Bakıda kütləvi dava: iki polis yaralandı

**Bakıda sərxoş gənclərlə polis əməkdaşları arasında insident baş verib. "Report" xəbər verir ki, Səbayel rayonu, Xəqani küçəsində sərxoş vəziyyətdə olan iki gənc ucadan danışmaqla, nalayiq sözlər işlətməklə vətəndaşları narahat etdikləri üçün ərazidə olan polis əməkdaşları onları intizama dəvət ediblər.**

Sərxoş olan İmişli rayon sakinləri 1991-ci il təvəllüdlü Cahid Əliyev və qardaşı 1994-cü il təvəllüdlü Zahid Post Patrul Xidməti Bölüyünün polis serjantları 1996-cı il təvəllüdlü Fərid Rəfullayev və 1992-ci il təvəllüdlü Emin Atakişiyevə tabe olmayaraq müqavimət göstəriblər. Nəticədə sərxoş qardaşlarla polislər arasında insident baş verib. F.Rufullayev baş nahiyəsinin əzilmiş-deşilmiş yarası, E.Atakişiyev isə kəllə-beyin travması ilə xəstəxanaya yerləşdirilib. C.Əliyev və qardaşı Z.Əliyev isə saxlanılaraq polis bölməsinə aparılıb.

Faktla bağlı Səbayel Rayon Polis İdarəsində araşdırma aparılır.

## Tələbə qız kirayədə qaldığı evin sahibini öldürdü

**Sumqayıt Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə şəhərin 9-cu mikrorayonunda qeydə alınıb. Orada kirayədə yaşayan, 1994-cü il təvəllüdlü Şərqiyə Mehdi qızı Ramazanova ev sahibi, 1940-cı il təvəllüdlü Səmayə Nəcəfovanı bıçaqlayaraq qətlə yetirib.**

Hadisəni törədən Ş. Ramazanova saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir. Məlumata görə, Ş. Ramazanova Sumqayıt Dövlət Universitetinin tələbəsidir.

## İki "jurnalist"ə hökm oxundu - 5 il həbs

**Bakı Ağır Cinayətlər Məhkəməsində şantajla məşğul olmaqda təqsirləndirilən Şahin Orucov və Cəlil Səmədovun cinayət işi üzrə məhkəməsi başa çatıb. "Report"un xəbərinə görə, hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü ilə hər iki təqsirləndirilən şəxs 5 il müddətinə azadlıqdan məhrum edilib.

Təqsirləndirilən şəxslərin hər ikisi məhkəmə zalında həbs edilib.

Qeyd edək ki, Ş.Orucov və C.Səmədov Sumqayıt şəhəri ərazisində yerləşən "Metallurq" adlı kafedə əxlaqsızlıq yuvası təşkil olunduğunu öyrəniblər. Onlar həmin kafeyə gedərək videogörüntülər çəkiblər. Özlərini jurnalist kimi təqdim edərək çəkilişləri yaymamaq qarşılığında 5 min manat pul tələb ediblər. Ş.Orucov "Kriminal və bəşəriyyət" qəzetinin təsisçisi, C.Səmədov isə "Korrupsiya və qanun" qəzetinin baş redaktorunun müavini olduğunu bildirib.

Hər iki şəxs Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə) maddəsi ilə ittiham olunurlar.

Ş.Orucov əvvəllər xuliqanlıq maddəsi ilə məhbusluq həyatı yaşayıb.

YENİ MÜSAVAT
N 263 (6291) 26 noyabr 2015

# Keyfiyyətsiz qaz sobaları bizi öldürə bilər

## Nüsrət Qasımov: "Qaz sobaları bizim qaz şəbəkələrinə uyğun buraxılmayıb"
## İbrahim Kərbalıyev: "Mənzillərə texniki baxışların keçirilməsini artırmışıq"

**Havalar soyuyan kimi hamı evini isitməyin yollarını axtarır. Bakının bir çox yerlərində istilik sistemləri olsa da, bəzi yerlərdə, o cümlədən bir sıra rayonlarda əhali evini qaz sobaları vasitəsilə isitməyə çalışır ki, bu da çox zaman faciə ilə nəticələnir. Hələ kəskin soyuqlar düşməsə də, artıq hər gün dəm qazından zəhərlənmələr, ölüm halları ilə bağlı xəbərlərə rast gəlirik.**



Qeyd edək ki, ölkəmizə İran qaz sobalarının gətirilməsi qadağandır. Ancaq az sayda da olsa "8-ci kilometr bazarı"nda qaz sobalarına rast gəlinir. Burada hətta sifariş götürməklə də bu cür sobaları hazırlayırlar. Bu isə yerli istehsal sayılır. Satıcılar deyir ki, bu cür sobaların alıcıları olduqca azdır. **Satıcı Eldar İbrahimov** qaz sobalarını özünün düzəltdiyini və keyfiyyətli olduğunu dedi: "Alıcılar yox dərəcəsindədir. Özüm qalın dəmirdən keyfiyyətli şəkildə düzəldirəm. Mənim düzəltdiyim sobalarda heç bir təhlükə ola bilməz. Amma sifariş verənlər azdır. Qiymətləri də baha deyil. 20-40 manata əldə etmək olar. Hətta elə soba düzəldirəm ki, onu həm odun, həm də qaz sobası kimi istifadə etmək olur".

**Söhbətə qatılan digər satıcı isə yalnız Rusiya istehsalı olan qaz sobaları satdığını dedi:** "Kənarları dilikli olan sobalar qətiyyən təhlükəli deyil. Əsas odur ki, bu sobaları özün yox, işini bilən bir ustaya quraşdırasan. Çox adam ustaya pul verməsin deyə özü düzüb qoşur. Bunun nəticəsində də zəhərlənmələr baş verir. Bu qaz sobalarını daha çox köhnə Bakı məhəllələrində yaşayan insanlar gəlib alır. O evlərdə istilik sistemi yoxdur".

Qaz sobası satılan ərazidə müştərilər də az idi. Satıcılar əhalinin son illərdə bu cür sobalar almağa qorxduğunu deyirdilər. Qeyd edək ki, qaz sobaları internet vasitəsilə də satılır. Qiymətləri isə 20-30 manatadır.

**Azad İstehlakçılar Birliyinin kommunal məsələlər üzrə eksperti Nüsrət Qasımov qaz sobası alarkən mütləq "Azəriqaz"la məsləhətləşmək lazım olduğunu dedi:** "Mərkəzləşdirilmiş istilik sistemləri olan evlərdə qaz cihazlarının quraşdırılması qəti qadağandır. Çünki o evlərdə tüstü bacası yoxdur. Onu balkona çıxarırlar. Belə olanda isə külək həmin qazı söndürür və qaz içəri vurur. Zəhərlənmənin çoxu da dəm qazından irəli gəlir. Qaz peçləri bizim qaz şəbəkələrinə uyğun buraxılmayıb. Onlar İran standartlarına uyğundur. İran şəbəkəsində də qazın təzyiqi 178 millimetrə bərabərdir. Amma bizim şəbəkədə optimal təzyiq 130 millimetrdir. O da heç də lazımi effekti vermədiyindən usta çağırıb onun borularını deşib xarab edirlər. Onun iş rejimi pozulur və karbon 4 oksid əvəzinə karbon monoksid xaric olur. O da zəhərlidir və 30 dəqiqə ərzində insanların həyatına son qoyur. Əgər bir evə 0,1 faiz dəm qazı yığılıbsa, artıq zəhərlənmə üçün hazırdır. Bu vəziyyət isə insanı zəhərləyib öldürür, öldürməsə belə ən yaxşı halda şikəst edir. Bazarlarda satılan





sobaları ayrı-ayrı firmalar gətirir. Bu firmalar bu qaz sobalarını gətirərkən mütləq "Azəriqaz"la razılaşmalıdır. Çünki bu sobalar "Azəriqaz"ın qaz şəbəkələrinə qoşulur. Amma çox vaxt firmalar yalnızca qazanclarını düşünərək "Azəriqaz"la məsləhətləşmir. Qaz sobasını aldıqdan sonra onu şəbəkəyə qoşmağa istehlakçının heç bir ixtiyarı yoxdur. Əhaliyə tövsiyə edərdim ki, qaz şəbəkələrinə toxunmasınlar. Vətəndaş qaz sobasını özbaşına qoşmaqla yalnız özünə deyil, günahsız qonşulara da təhlükə yaradır. Əgər mənzilə, mətbəxə, hamamxanaya 4,5 faiz qaz yığılarsa, partlayış baş verə bilər və partlayışın zərbə qüvvəsi çox böyük dağıntılar yaradar. Boğulma, yanma məhsullarından isə zəhərlənmə əmələ gətirir. Ona görə də qaz təsərrüfatında heç bir özbaşınalığa yol vermək olmaz. Mətbəxdə dördgözlü qazlar isə yemək bişirildikdən sonra söndürülməlidir. Bu qaz yananda onun yanma prosesi düzgün getmirsə, mətbəxə dolur. Dördgözlü qaz olan mətbəxdə uzun müddət qalmaq, yatmaq olmaz. Ümumiyyətlə, qaz olan otaqda çox qalmaq olmaz. Metan qazı yananda radiaktiv maddə olan radon maddəsi ayrılır, o da evin divarlarına köçür və insan səhhəti üçün zərərlidir. Ona görə də dördgözlü sobaların uzun müddətli yanması qəti surətdə yolverilməzdir".

**"Azəriqaz" İstehsalat Birliyi mətbuat xidmətinin rəisi İbrahim Kərbalıyev təbii qazdan təhlükəsiz istifadə ayı ərzində daha güclü iş rejiminə keçdiklərini dedi:** "Mənzillərə texniki baxışlar keçirilir. Hər il olduğu kimi, bu il də noyabr ayının 1-dən dekabr ayının 1-dək "Azəriqaz" İstehsalat Birliyində müvafiq əmr imzalanıb. Həmin əmrə əsasən bu 1 ay respublika ərazisində təbii qazın təhlükəsiz istifadə ayı elan olunub. Həmin 1 ay ərzində mənzillərə texniki baxışların keçirilməsini artırmışıq. Həmçinin əhalinin təbii qazdan istifadə qaydalarına dair maarifləndirilməsi həyata keçiririk. O cümlədən mənzillərə texniki baxışlar zamanı ən mühüm məsələlərdən biri də qeyri- standart qaz cihazlarının və avadanlıqlarının istismardan çıxarılması üçün zəruri tədbirlər görülür. Təbii qazdan istifadə qaydalarını pozan istehlakçıların qaz təchizatı müqaviləyə uyğun olaraq müəyyən edilmiş qaydada dayandırılır. Həmin yaranmış qüsurlar aradan qaldırıldıqdan dərhal sonra mənzillərə təbii qazın verilişi tərəfimizdən təmin olunur. Ümumiyyətlə, bu texniki baxışların mövcud bir xarakteri yoxdur. Təbii qazdan təhlükəsiz qaydada istifadə çərçivəsində də bu işi daha da sürətləndirmişik. Mütəxəssislərimiz tərəfindən maarifləndirmə xarakterli çıxışlar olur. Həmçinin əhalinin sıx olduğu yerlərdə bukletlərin paylanması kimi bir çox işlər görülür. Bütün regional qaz istismar idarələri, o cümlədən yerli qaz istismar sahələri, həmçinin "Azəriqaz" İstehsalat Birliyinin texniki istismar şöbəsi, o cümlədən də qaynar xəttimiz gücləndirilmiş iş rejimində işləyir".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Gözəl və zəngin həyat, cənnət vədi...

## Azərbaycan gənclərinin İŞİD-ə meylliliyinin sirri təkcə bunda deyil; psixoloq: "Bu qruplaşma işsiz və bekar gənclərə qarşı psixoloji texnologiyalardan məharətlə istifadə edir..."



**İŞİD terror qruplaşmasına qoşulmağa qərar verən, lakin bugünlərdə Türkiyə polisi tərəfindən Adana şəhərində tutulan 14 Azərbaycan vətəndaşından 4-ü gənc oğlan, 3-ü qadın, 7-si isə uşaqdır. Bunu virtualaz.org saytına açıqlamasında XİN mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**

Xatırladaq ki, noyabrın əvvəllərində Adanada İŞİD-ə qoşulmaq istəyən 38 əcnəbi tutulub. Onların 5-i Qırğızıstan, 14-ü Azərbaycan, 7-si İndoneziya, 5-i İraq, 2-si Tacikistan, 3-ü İran və 2-si Əfqanıstan vətəndaşı olub. Tutulanlar arasında 15 azyaşlı uşaq da olub ki, onların da yarısı azərbaycanlılardır. O da məlum olub ki, saxlanılan azərbaycanlılar 3 ailənin üzvləridir.

Qeyd edək ki, bugünlərdə Türkiyə mediası Suriyadakı qarşıdurmalarda Azərbaycandan gedən 30-a yaxın öldürülmüş döyüşçünün fotoları yayımlamışdı.

İŞİD-ə qoşulan gənclərin sayına diqqət etsək görərik ki, gənclərin psixologiyasında döyüşə, ölümə meyllilik var.

Ümumiyyətlə, müharibə, döyüş hər zaman gəncləri özünə cəlb edib. 90-cı illərdə də gənclər, uşaqlar evdən qaçır, müharibəyə gedirdilər. Ancaq İŞİD onları daha çox cəzb edir, nəinki öz vətənimiz uğrundakı döyüşlər. Döyüş, ölüm sanki bu gəncləri özünə çəkir. Bəs bunun səbəbi nədir?

**Psixoloq Dəyanət Rzayev İŞİD-in psixoloji texnologiyalardan istifadə edərək bu gəncləri ağuşuna aldığını dedi:** "İŞİD-in ideologiyası öz-özünə yaranmayıb. Bu ideologiyada çoxlu psixoloji texnologiyalar işlənilib. Ancaq İŞİD-də belə bir ideologiya yaratmaq ağlı olmazdı. Bunun üzərində müəyyən qədər xarici kəşfiyyatlar işləyib. Bir valideyn uşağını yanıma gətirmişdi. Uşaq Suriyaya gedərkən valideynləri onu vağzalda tutmuşdu. Uşaq özündə deyildi. Onlar müəyyən psixotrop dərmanlardan istifadə edirlər. İŞİD üçün əsas ideologiyadır. Onlar bu cür gəncləri xüsusilə seçirlər. Məsələn, baxır ki, gənc ailədir. Nəyəsə iddialı da deyil. Onları bu birləşməyə cəlb etmək üçün müəyyən vədlər verirlər. Amma ən əsas vəd o olur ki, sən cənnətə düşəcəksən. Onları cənnətin varlığına inandırır, Allah yolunda şəhid olacağını deyir, valideynlərinin də cənnətə gələcəyini və orada görüşəcəklərini deyirlər. Təbii ki, bu gənclərin də psixologiyası hələ tam formalaşmayıb. 18 yaşdan 30 yaşadək psixika hələ tam formalaşmır. Ona görə də insanın öz düşündüyü bir ideologiyası yoxdur və burada bir boşluq var. Bu boşluğu da nə iləsə dolmalıdır. Məsələn, biz deyirik ki, Qarabağ problemi var. Sabah Qarabağ müharibəsi başlasa, həmin Suriyaya qaçan gənclərin heç biri Qarabağ müharibəsinə getməyəcək. Çünki İŞİD-in ideologiyası bəzilərinə daha cəzbedici görünür. Qarabağ müharibəsi zamanı nə qədər insan həlak oldu, əlil, veteran oldu. Müharibə iştirakçıları, öz sağlamlıqlarını döyüşdə itirən insanlar bu gün qəpik-quruş təqaüd alır. Qarabağa getmək üçün insanlara vədlər versək gedənlər olacaq. Ancaq yenə İŞİD-ə meyl daha güclü olacaq. Çünki orada insanlara cənnət vəd edilir və onların beyni tamamilə yuyulur. Daha çox bekar, işsiz gəncləri İŞİD-ə cəlb edirlər. Onlara evləndirəcəklərini, pul, cənnət və sairə təklif edirlər. İşsiz olan gənclərə də bu təklif çox cazibədar görünür.

90-cı illərdə Azərbaycanda gedən müharibəyə yalnız kasıbların uşaqları gedirdi. Yəni varlı-kasıb arasında bərabərlik yox idi. Sabah Qarabağ müharibəsi olsa, varlıların, məmurların uşaqları da təbii ki, gedəcək əsgərliyə. Amma kasıbların balaları kimi döyüş zonasına yox. İsti, rahat, yaxın bir yerə gedəcəklər. Əsgərləri alçaldır, döyürlər, ona görə də insanlar düşünürlər ki, mən gedib nəyə görə alçalmalıyam. Ona görə də vacibdir ki, ideologiya düzgün qurulsun, insanlar bərabər olsun. İnsanlara bərabər yanaşmaq lazımdır".

**❑ Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 263 (6291) 26 noyabr 2015

# İt öz sahibləri üçün toy videosu çəkdi

Amerikada Rayder ləqəbli it öz sahibləri üçün toy videosu çəkib. Marşall və Eddi Bernett adlı sahiblərinin sevimli gününü videoyaddaşa həkk edən köpək bu işi zövqlə yerinə yetirib. Mərasim 2014-cü ilin qışında baş tutsa da, rolikin montajına xeyli vaxt sərf olunub: "Bizim itimiz Ryder israr edirdi ki, bu toy videosunun operatoru olmalıdır və o, bu işin öhdəsindən çox gözəl gəldi".



Yeni evlilər GoPro kamerasını öz sevimli itinin çiynində yerləşdirib və videoqeyd üçün müvafiq düyməni basıblar. Qonaqlar isə ona nəzarət ediblər ki, Rayder mərasim zamanı heç yerə qaçmasın. Xüsusən də böylə gəlin öpüşən dəqiqələrdə. "Bizim qar toyumuz" adlı rolik YouTube kanalında 340 min dəfə baxılıb. GoPo kamerasına ev heyvanları tərəfindən çəkilən videolar hər zaman internetdə populyarlıq qazanıb. 2015-ci ilin yanvarında da Volter adlı itin İtaliyadakı tətillə bağlı çəkdiyi videorolik populyarlıq qazanmışdı.



## Bir ailə 300 uşaq arabası oğurladı

Paris polisi bir ailəni və onların 15 yaşlı qızlarını 300 ədəd uşaq arabası oğurlamaqda şübhəli bilir. Bu barədə "Le Figaro" qəzeti xəbər verir. Ailə paytaxtın bir neçə dairəsində və Disneylandda oğurluq həyata keçirib. Bundan sonra isə həmin arabalar internetdə satılıb. Uşaq arabaları mağazasının meneceri Silvi Attali deyib ki, son iki ildə çoxlu sayda valideyn uşaq arabalarının oğurlanmasından şikayət edib. Hətta uşaq arabaları oğurlanmasın deyə, son vaxtlar onları dirəyə bloklamaq üçün xüsusi zəncirlər də satışa çıxarılıb.

Polisdən bildirilib ki, adətən uşaq arabası oğrularını tapmaq çətin olur. Çünki onlar maşından fərqli olaraq hər hansı nömrəyə, qeydiyyata sahib deyillər. Aileni hansı cəzanın gözləyəcəyi bəlli deyil.



## Amerikan uşaqların arzusu idmançı olmaqdır

Amerikanın media orqanı olan "Fatherly" müəyyənləşdirib ki, 2015-ci ildə əksər uşaqlar professional idmançı olmağa can atırlar. Sorğuda 6 yaşa qədər olan 6 min uşaq iştirak edib. Sorğunun nəticələrinə uyğun olaraq müəyyənləşib ki, populyarlığına görə ikinci yerdə həkim sənəti gəlir. Üçüncü yerin sənəti hələ ki, müəyyənləşməyib. Ondan sonrakı yerlərdə isə öz gələcək fəaliyyətlərini müəllimliklə bağlamaq istəyənlər dayanır.

2007-ci ildə isə eyni sorğu rusiyalı uşaqlar arasında keçirilərkən valideynlərin böyük əksəriyyəti öz uşaqlarını həkim və ya tibb işçisi kimi görmək istədiklərini açıqlayıb. İkinci yerdə vəkillər, üçüncü yerdə isə mühəndis və biznesmenlər gəlir.

# Keçəl kişilər daha güclüdür?

**ABŞ-ın Pensilvaniya ştatında yerləşən Pensilvaniya Universitetinin araşdırmasına görə, keçəl kişilər saçlı həmcinslərilə müqayisədə daha dominantdır. Araşdırma qrupunun rəhbəri Albert Mannes "Time" jurnalına açıqlamasında araşdırmanı 3 mərhələdə gerçəkləşdirdiklərini bildirib.**

A.Mannesin dediyinə görə, araşdırmanın ilk hissəsində rəyi soruşulanlara fərqli saçlara sahib 60 nəfərin şəkilləri göstərilib. Rəy sorğusuna qatılanların verdiyi ballara müvafiq olaraq bir-birinə yaxın illərdə dünyaya gəlmiş kişilərin keçəl olanları "ən güclü"lər olaraq qiymətləndirilib. İkinci mərhələdə isə sorğuya qatılanlardan eyni kişinin saçlı və saçsız halını göstərən şəkilləri dəyərləndirmələri istənilib.

Nəticələrə görə, kişilərin saçsız görüntüsü saçlı görüntü ilə müqayisədə daha dominant olaraq qiymətləndirilib. Üçüncü mərhələdə isə anket iştirakçıları deyib ki, əslində onlar keçəl kişilərin daha xarizmatik və güclü olması qənaətindədirlər.





## İngilis qadın 2 pişiyə ərə getdi

**Britaniya sakini Barbarella Byuxner iki pişiyə ərə gedib. Bu barədə lenta.ru saytı xəbər verir. Britaniyalı bal ayını iki pişiklə Kanar adalarında keçirib. Xəbərdə qeyd edilir ki, ölkədə insanları heyvanlarla evləndirməyə kömək edən sayt var. Və bu sayt britaniyalı qadına pişiklərlə evləndiyi üçün sertifikat verib.**

Bu sənəd hər hansı hüquqi statusa malik deyil. Qeyd edilir ki, qohumları qadının bu hərəkətini ağılsızlıq sayır. 7 il əvvəl Byuxner sevdiyi kişi ilə münasibətlərini kəsib. Bundan sonra isə sahibsiz heyvanlara aid sığınacaqdan Luqoşi və Spayder adlı pişikləri himayəsinə götürüb. Qadın öz pişikləri ilə Londonun cənubundakı evində yaşamaq istəyir.




**QOÇ** - Ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, ətrafınızda olan adamlar ovqatınızı az da olsa, yüksəltməyə çalışacaq. Hətta axşama doğru sevindirici xəbər də eşidə bilərsiniz.

**BUĞA** - Ulduzlar şəxsi taleyinizdə müəyyən dönüş yaranacağından xəbər verir. Özünüzü hazır bilsəniz, sözügedən proseslərə daha tez nail ola bilərsiniz. Məsləhətlərə ehtiyacınız var.

**ƏKİZLƏR** - Maddi problemlərinizin olmasına baxmayaraq, ruhdan düşməyin. Əksinə, əzmkarlığınızı daha da artırmaqla bu kimi psixoloji sarsıntıları dəf etməlisiniz. Rəhbər işçilərlə mübahisə etməyin.

**XƏRÇƏNG** - Əsas diqqətinizi ailə-sevgi münasibətlərinin tənzimlənməsinə yönəldin. Əgər bu istiqamətdə uğurlar əldə etsəniz, digər problemləriniz kölgədə qalacaq. Axşam qonaq gedin.

**ŞİR** - Günün ilk yarısı əməkdaşlıq zəminində uğurlu gedişlərə nail olmaq üçün çox səmərəlidir. Aldığınız hər bir təklifi razılıqla qarşılayın. Çünki ulduzlar qarşıdakı yeni işlərə "hə" deyir.

**QIZ** - Təxminən saat 14-ə qədər ümumi ovqatınızda süstlük müşahidə olunsa da, sonrakı müddət normal tərzdə cərəyan edəcək. Çıxardığınız hər bir qərarın nəticəsi barədə düşünün.

**TƏRƏZİ** - Hər mənada uğurlu gün hesab etmək olar. Göy qübbəsi sizi müdafiə etdiyindən nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Açıq havada çox durmayın.

**ƏQRƏB** - Təzə xəbər eşidəcəyiniz gözlənilir. Hətta peşənizdən asılı olaraq yeni iş təklifləri də ala bilərsiniz. Günün ikinci yarısında xeyirxah adamlarla rastlaşma ehtimalınız var.

**OXATAN** - Yeni əlaqələr yaratmaq üçün böyük şansınız var. Bu, istər işgüzar istiqamətdə, istərsə də səmimilik zəminində real proqnozdur. Odur ki, oturaq işlərə ara verib aktivlik göstərin.

**OĞLAQ** - Müəyyən qədər xərc çəkəcəyiniz gözlənilir. Əgər bu, xeyirxah istiqamətə yönəlibsə, bundan yalnız məmnun olmaq lazımdır. Bugünkü təqvimdə kimlərisə sevindirmək böyük savabdır.

**SUTÖKƏN** - Astroloji göstəricilərə əsaslansaq, bu təqvimi nisbətən gərgin şəraitdə başa vuracaqsınız. Neytral olmağa çalışın. Səhhətinizi qorumağınız da məsləhətdir. Bu gün uzaq səfərə çıxmaq münasib deyil.

**BALIQLAR** - Aktiv fəaliyyətə ara verməlisiniz. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Sizin üçün ən düşərli məqam işgüzar görüşlərdə iştirak etmək və ya yaxın ünvana qonaq getməkdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Telekonfransla evləndilər, sonra da boşandılar



**Konqoda maraqlı nikah mərasimi baş tutub. Noel Tshani adlı kişi ABŞ-ın Maryland şəhərində yaşayan qadınla "telekonfrans" vasitəsilə rəsmi nikah gerçəkləşdirib. Amma cütlük daha sonra boşanıb. Məhkəmə Tsihaninin həyat yoldaşına 6 min dollar maddi təzminat və həyat yoldaşının yardımı ödəməsinə qərar verib. Tsihani isə bu pulu ödəməmək üçün deyib ki, nikah zamanı Konqoda olduğu üçün bu evlilik saxtadır. Amma Marylandda qanunlar tamam başqa cür işləyir: burada telekonfransla baş tutan evliliklər də keçərli sayılır. Bu barədə məhkəmə qərarı belə var.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300